Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Növbədənkənar
on altıncı sessiya

74-cü cild

14 iyun 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# XVI SESSİYASI İCLASININ

# PROTOKOLU № 172

*Milli Məclisin iclas salonu.*
*14 iyun 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 104 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 10.01 dəq.) |
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

## İclasa dəvət olunmuşlar:

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Sahib Ələkbərov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Xaqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**İlkin Vəliyev**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti rəisinin müavini.

**Elşən Rəhimli**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin baş idarə rəisi.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**Himalay Məmişov**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Natiq Şirinov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin şöbə müdiri.

## İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:

1. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

3. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda də-

yişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

4. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan

Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Elman Nəsirov, Zahid Oruc, Etibar Əliyev, Azər Badamov, Tural Gəncəliyev, Elşad Mirbəşir oğlu, Ceyhun Məmmədov, Naqif Həmzəyev, Vüqar Bayramov, Fəzail Ağamalı, Bəhruz Məhərrəmov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 10.02 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 10.44 dəq.) |
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**2. “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Razi Nurullayev, Vüqar Bayramov, Siyavuş Novruzov, Zahid Oruc, Aydın Hüseynov, Bəhruz Məhərrəmov, Tahir Kərimli, Fəzail Ağamalı, Sahil Babayev, Sabir Rüstəmxanlı

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.00 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**3. “Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.00 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs verмədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**4. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

| | |
|---|---|
| **Təklif:** 2-ci maddə qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** 3-cü maddə qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə, Kamal Cəfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**7. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev, Etibar Əliyev, Sabir Rüstəmxanlı

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Fazil Mustafa, Siyavuş Novruzov, Ceyhun Məmmədov, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 92 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Ziyafət Əsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**11. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar Məmmədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*14 iyun 2024-cü il. Saat 10.*

*Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini* ***Əli Hüseynli*** *sədrlik edir*

**Sədrlik edən.** Sabahınız xeyir olsun, hörmətli deputat həmkarlar. Xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 10.01 dəq.) |
|---|---|
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

Yetərsay var, müzakirəyə başlaya bilərik.

Hörmətli deputat həmkarlar, indi isə xahiş edirəm, gündəliyə münasibətimizi bildirək.

| **Səsvermənin nəticələri** | (saat 10.02 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Hörmətli deputat həmkarlar, gündəlik və gündəmdə olan məsələlərlə bağlı yarım saat müzakirə keçirə bilərik. Buyurub yazıla bilərsiniz. Elman Nəsirov.

**E.Nəsirov**. Hörmətli Əli müəllim, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri. Bugünkü çıxışımda istərdim ki, diqqəti son günlər Ermənistan–Azərbaycan münasibətlərinin tənzimlənməsi ilə bağlı prosesdə yaranmış yeni reallıqlara cəlb eləyim. Mahiyyəti ondan ibarətdir, Ermənistanın Baş naziri bəyan eləyir ki, yaxın bir ay ərzində Azərbaycanla sülh müqaviləsi imzalamağa hazırdır, eyni zamanda, delimitasiya, demarkasiya və kommunikasiyaların bərpası ilə bağlı prosesdə də real addımları atmaq mümkündür və sülh müqaviləsinə qədər bunları yekunlaşdırmaq olar. Ancaq belə bir bəyanat verməklə yanaşı, Konstitusiyada hər hansı düzəlişlərin edilməyəcəyinin də anonsunu verir. Baxmayaraq, bir qədər əvvəl o, qeyd eləyirdi ki, Konstitusiyada nəinki düzəliş və əlavələr, bütövlükdə, Ermənistan Konstitusiyasını dəyişmək niyyətindədir. İndi isə bu fikrindən imtina edir və dolayısı ilə, əslində, sülh müqaviləsinin imzalamasına hazır olmadıqlarını təsdiqləmiş olur.

Nəzərə alsaq, ölkə Prezidenti cənab İlham Əliyev Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrin parlament sədrləri ilə keçirdiyi görüşündə birmənalı şəkildə söylədi ki, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi imzalanması üçün ilk növbədə Ermənistan Azərbaycana qarşı ərazi iddialarından Konstitusiya səviyyəsində imtina etməlidir. Konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları əks olunub. Belə olan vəziyyətdə hansı sülh müqaviləsindən söhbət gedə bilər. İlk növbədə Konstitusiyada dəyişiklik, ondan sonra isə sülh müqaviləsi imzalana bilər.

Bu da anlaşılandır. Hipotetik baxımdan ən azı bunu mümkün hesab etmək olar ki, Ermənistanda əgər siyasi hakimiyyət dəyişsə, – bunu da heç kim birmənalı, yüz faiz istisna edə bilməz, çünki vəziyyət, doğrudan da, çox qəlizdir, gərgindir, – doğrudan da, Ermənistanda yeni hakimiyyət peyda olsa, o, Paşinyanın imzasından imtina edəcək, Konstitusiya məhkəməsinə müraciət edəcək və imzalanmış sənədləri də qeyri-qanuni hesab edəcək. Ona görə də bizim üçün ən vacibi Ermənistanın Baş nazirinin imzasından güclü olan Ermənistan xalqının siyasi iradəsidir. Referendum da təsdiqləməlidir ki, Konstitusiyada dəyişiklik olsun və o dəyişikliklə Azərbaycana qarşı ərazi iddiaları tamamilə çıxarılsın. Belə olan vəziyyətdə artıq, sözün həqiqi mənasında, sülh müqaviləsinin imzalanması üçün yeni şərait yaranır və bu halda sülh müqaviləsini imzalamaq olar. Ona görə də, hesab edirəm ki, Ermənistan siyasi rəhbərliyi sülhlə bağlı bir addım irəli, iki addım geri atmaqla məşğuldur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc**. 15 iyun yalnız 90-cı illərin təqvim hadisəsi deyil, həm də 2023-cü ilin 20 sentyabrından sonra bütün əzəməti ilə aydın görünən dönüş nöqtəsidir. Əslində, Ulu Öndərin tərcümeyi-halının yarım əsri onlarca xilaskarlıq səhifəsi ilə doludur. Stalinin qurduğu imperiyada çekist sistemindən hakimiyyət birinciliyinə gəlmək, Nərimanov və Bağırovun acı taleyindən sonra, 1969-cu ildə Azərbaycana rəhbərlik eləmək əsl qurtuluş hadisəsi idi. Çünki çarizm, Cümhuriyyət və sovet dövrü liderlərinin heç biri onun qədər yüksələ, uzun illər zirvədə qala və ikinci dəfə hakimiyyətə qayıda bilmədilər. Belə siyasi uzunömürlülük xalqımızın və hələ yenicə formalaşan milli dövlətimizin də möhkəmlik testi oldu. Beləliklə, 8 noyabr Zəfəri son

əlli illik Əliyev kursunun parlaq nəticəsidir.

Lakin biz Əliyevin gedişini də görmüşdük. 1987–1993-cü illərdə quruculuq xətti qırılan kimi təkcə Ermənistanda deyil, sovet coğrafiyasının hər yerində, Rusiyadan Orta Asiyaya və Gürcüstana qədər azərbaycanlıların kütləvi köçü başlandı. Bir neçə il sonra daxildə yüzminlərcə didərgin də 200 illik çarizm və son ümumittifaq qaçqınlığının növbəti pərdəsi idi. Lakin 80-ci illərdə imperiya rəhbərlərindən biri, yaxud 1993-cü ildə xiyabanlara və çadır şəhərciklərinə bürünən məmləkətə başçılıq eləyəndə də Heydər Əliyev hansı tarixi missiya qarşısında olduğunu yaxşı bilirdi. Əzəmətli Kremldə, ucqar Naxçıvanda, 1993-cü ilin yanan Bakısında o, son iki əsrdə məğlub olan bütün milli rəhbərlərin yarımçıq taleyini təmsil edirdi. Əcdadlarımızın məğlubiyyət silsiləsini durdurub, nəhayət qalib millət yaradanda artıq o, qurtuluşdan zəfərə gedən yolun əsasını qoydu. İndi ölkəmizə qələbə gətirən "Dəmir yumruq", əslində, Heydər Əliyevə aid müharibə simvoludur. Ordusuz Horadiz əməliyyatı, etnik separatizmin silahsız məhvi, büdcəsiz qlobal neft savaşının udulması və nəhayət, bu parlament binasında oynanılan antixalq tamaşalarının durdurulması həmin dəmir iradənin nəticəsi idi.

Üç gün əvvəl öz xalqının məfkurəsində çevriliş edən Nikol Paşinyanın Ermənistanı özü boyda patriarxata döndərmək istəyənlərə üzünü tutaraq, Lissabon sammitindən sonra erməni rəhbərləri məğlub oldular və yalan danışdılar. 2018-ci ildə bunları biləndə gərək Qarabağ Azərbaycanın tərkibində tanıyaydım, deməsi Ulu Öndərin ruhunun təntənəsi idi. Uzun illər Əliyevin kölgəsini qılınclayanlar, indi gedib böyük liderdən əfv diləsinlər. Ona qalib gələ bilməyənlər son 4 ildə İlham Əliyevə məğlub oldular. Bəli, qayıdış əbədi prosesdir. 2022-ci ilin

19 iyununda Ağalıya, 2023-cü ilin 17 oktyabrında Füzuliyə, 2024-cü ilin 10 mayında müqəddəs Şuşaya və nəhayət 28 mayda qan yaddaşımız Xocalıya dönüş də milli qurtuluşun 32 ildən sonrakı davamıdır. Biz nəinki ölkəmizdə, bütün dünyada, Rusiya–Ukrayna savaşında, torpağından qan daman Qəzzada da milli qurtuluş arzulayırıq. Sağ olun.

**Sədrlik edən.** Siz də sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev**. Hörmətli Əli müəllim, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Nobel sülh mükafatına layiq görülməsi barədə fikirlər genişlənir. Uzun illər bu mötəbər mükafatın tədqiqatçısı kimi deyə bilərəm ki, bunu əsaslandırmaq üçün çox ciddi səbəblər var. Nobel sülh mükafatı Alfred Nobelin məşhur vəsiyyətinə uyğun olaraq, millətlərin dostluğuna xidmət edən, hərbi qarşıdurmaları aradan qaldıra bilən, eləcə də sülhpərvər qüvvələrin bir araya gəlməsini təşkil edən şəxslərə verilir. Namizədlərlə bağlı fəlsəfə, tarix, hüquq və siyasi elmlərin tanınmış nümayəndələri, həmçinin aktiv ictimai xadimlərin rəyləri öyrənilir. Həmçinin əvvəlki illərdə Nobel mükafatları laureatları individual formada namizədlik irəli sürə bilərlər.

1994-cü ildə atəşkəs müqaviləsinin imzalanmasında Azərbaycan tərəfinin məqsədi ədalətli sülhə nail olmaq idi. Lakin ermənilər və onların havadarları ədalətli sülhün əldə olunmasına maneçilik törətdilər. Dünyada atəşkəs nümunəsi var. 1973-cü ildə ABŞ–Vyetnam müharibəsində keçici atəşkəsin əldə olunmasına görə Kissencer sülh üzrə Nobel mükafatına layiq görüldü.

Qarabağla bağlı BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmadı. Buna baxmayaraq, Kofi Anan Nobel sülh mükafatına layiq görüldü. BMT-nin müxtəlif institutları bir neçə dəfə Nobel sülh mükafatına layiq

görülüb. Məsələn, Qaçqınlar üzrə Ali komissarlığı 3 dəfə Nobelə layiq görülüb.

44 günlük Vətən müharibəsində Azərbaycan bu qurumda islahat aparmağa nail oldu. İlham Əliyev Zəfərdən sonra da sülhün əldə olunması işində əlindən gələni əsirgəmir. İlham Əliyevin sülhə verdiyi töhfələr Nobel sülh mükafatının fövqündə dayanır. Azərbaycan Prezidentinin ideya müəllifi olduğu, Azərbaycanda keçirilən VI Beynəlxalq Humanitar Forumda və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış Dünyanın Bərpası" mövzusunda XI Qlobal Bakı Forumunda dünyanın tanınmış simaları bir araya gətirildi. Belə tədbirlərdə onlarca nobelçi və dövlət başçıları iştirak edir. Bütün bu tədbirləri Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı ilə müqayisə etmək olar.

İlham Əliyev qədər heç bir dövlət başçısı bəşəriyyətin gələcəyinə və dünyada ədalətli sülhün bərqərar olmasına töhfələr verməyib. Dünyanı ağuşuna alan terror aktlarının kökünü kəsmək hər bir liderə nəsib olmur. İlham Əliyevin müdrik siyasəti nəticəsində keçirilən rasional antiterror əməliyyatı insanların bu vəhşi aktdan qorxusunu azaltdı.

İlham Əliyevi bəşəriyyətin iqlim dəyişiklikləri kimi təhlükələrlə üzləşməsi də düşündürür və bu məqsədlə COP29 Konfransının Azərbaycanda keçirilməsi yeni optimizə yol açır. Ekoloji hərəkat və iqlim dəyişikliklərinə verilən töhfələrə görə 6 nəfər sülh üzrə Nobel mükafatına layiq görülüb. Bütün bu fəaliyyətləri analiz etdikdə görürük ki, son 30 ildə sülh üzrə Nobel mükafatçılarının heç biri İlham Əliyev qədər praqmatik olmayıb. Bu mənada namizədlik irəli sürənlərin əlində kifayət qədər əsaslar var və onları bu işə qoşmaq...

**Sədrlik edən.** Sağ olun. Azər Badamov. Buyurun.

**A.Badamov**. Təşəkkür edirəm, hörmətli Əli müəllim. Müasir müstəqil Azərbaycan dövləti iki əsas üzərində inkişaf edir. Birinci əsas, sovetlərin dağılması ilə yenidən müstəqilliyə qovuşmağımız olmuşdusa, ikinci əsas isə Milli Qurtuluş Günümüzdür. Ulu Öndər Heydər Əliyevin "müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" müdrik kəlamının nə qədər dəqiq olduğunu tarix sübut etdi. Çünki 1918-ci ildə yaradılmış AXC cəmi 23 ay yaşadı və Cümhuriyyət qurucuları o vaxt çətinliklə qazandıqları dövlət müstəqilliyini qoruyub saxlaya bilmədilər.

İkinci dəfə müstəqilliyə qovuşmağımız isə tarixi bir prosesin məntiqi nəticəsi idi. Amma bu nailiyyəti qoruyub saxlamaq və inkişaf etdirmək üçün çox çətin bir keçid dövrünü yaşamalı olduq. Ölkə daxilində gedən çəkişmələr və hakimiyyətsizlik xarici düşmənlərimizin çirkin niyyətlərinin reallaşmasına yol açırdı. Məhz belə bir çətin dövrdə xalqının və ölkənin taleyini Ümummilli Lider Heydər Əliyev xilas etdi. Bu baxımdan 15 iyun Milli Qurtuluş Günü müasir Azərbaycan tarixinin qızıl hərflərlə yazılan şanlı səhifəsidir. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan dövlətinin gələcək taleyinə, əbədi olaraq müstəqil olmasına işıq saldı. Məhz dahi liderin hakimiyyətə qayıdışı xalqımızın özünü müstəqil ölkənin vətəndaşları olduğunu hiss etməyinə yol açdı. Əgər milli qurtuluşumuz olmasaydı, necə bir Azərbaycanın ola biləcəyini təsəvvür etmək çətin deyildi. Ölkənin parçalanması və gücsüzləşməsi düşmənlərimizin uzun illər arzusu idi. Məhz Ümummilli Lider Heydər Əliyevin qayıdışı düşmənlərimizin arzularını ürəklərində qoydu və bu gün hər birimizin fəxr edib, qürur duy-

duğumuz qalib və inkişaf etmiş müstəqil Azərbaycanın meydana gəlməsini şərtləndirdi.

Bəli, yaşadığımız qısa tarix Ulu Öndərin nə qədər böyük şəxsiyyət olduğunu bizə tanıtdırdı. Bu gün Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi altında nəinki ərazilərində suverenliyini bərpa edib, keçmiş məcburi köçkünləri öz doğma yurdlarına qaytarır, həm də dünya nizamının formalaşmasında rolu olan ölkəyə çevirilmişdir. Ümummilli Lider bizimlədir, ideyaları ölməzdir, əbədidir, onun xatirəsi heç vaxt unudulmur və Azərbaycan durduqca yaşayacaqdır.

Hörmətli həmkarlar, hər birinizi qarşıdan gələn Milli Qurtuluş Günü və Qurban bayramı münasibəti ilə təbrik edirəm, ölkəmizə sülh, əmin-amanlıq, firavanlıq və rifah arzulayıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev. Buyurun.

**T.Gəncəliyev.** Hörmətli Əli müəllim, hörmətli həmkarlar, hökumət üzvləri. Mən də fürsətdən istifadə edib, Milli Qurtuluş Günü münasibəti ilə hər birinizi təbrik edirəm. Tariximizin belə bir şərəfli zirvəsini yaşadığımız dövrdə Milli Qurtuluş Gününü qeyd etməyimizin xüsusi önəmi, əhəmiyyəti vardır.

Hörmətli həmkarlar, bu gün biz Ermənistan–Azərbaycan münaqişəsi dövründə münasibətlərin normallaşması ilə bağlı Ermənistan Konstitusiyasının dəyişdirilməsi və oradan qonşu ölkələrə qarşı ərazi iddiasının çıxarılmasının əhəmiyyəti haqqında çoxlu müzakirələr edirik, çoxlu danışırıq. Ermənistan elitası, Ermənistan rəhbərliyi başa düşməlidir ki, Konstitusiyaya dəyişiklik etmək, qonşu ölkələrə qarşı ərazi iddialarından imtina etmək üçün, yəni burada hansısa xüsusi bir qorxu, xüsusi bir fobiya yoxdur. Dünya təcrübəsində dəfələrcə hallar var ki,

müharibədən sonra ölkələr öz Konstitusiyalarına dəyişiklik eləmişlər. Məsələn, misal kimi göstərə bilərik, İkinci Dünya müharibəsindən sonra Almaniya. Faşist Almaniyası İkinci Dünya müharibəsinin başlanmasına səbəb olan əsas ölkə idi. Münaqişə başa çatdıqdan sonra Qrundgesetz, əsas qanun, Konstitusiyada dəyişiklik etmişdir və faşist mirasından azad olaraq demokratik bir ölkə qurmaq istiqamətində addım atmışdır. Eyni şeyi biz faşist Mussolini İtaliyasına da aid edə bilərik. İkinci Dünya müharibəsindən sonra Konstitusiyalarına dəyişiklik etdilər və keçmiş mirasdan azad oldular. Hətta Ermənistanın ən yaxın müttəfiqi olan Fransa belə 1947-ci ildə öz Konstitusiyasına dəyişiklik etmişdir. Bu siyahını uzatmaq olar.

Misal üçün, 1953-cü ildə Koreya müharibəsi başa çatdıqdan sonra eyni məsələ Koreyada baş vermişdir. Cənubi Koreya öz Konstitusiyasında dəyişiklik etmişdir və yaxud, Cənubi Afrika Respublikasında aparteid rejimi başa çatdıqdan sonra 1993–1994-cü illərdə yeni Konstitusiya qəbul edilmişdir.

Bütün bunlar onu göstərir ki, Ermənistan rəhbərliyi dünya təcrübəsindən istifadə etməli, öz Konstitusiyasına dəyişiklik etməlidir. Xüsusi ilə də çox gülüncdür ki, Ermənistan öz gerbində NATO-nun ikinci ən böyük ordusu olan Türkiyəyə qarşı ərazi iddiasını saxlayan simvoldan istifadə edir. Təbii ki, bütün bunlardan Ermənistan imtina edərsə, onda onun münaqişənin tənzimlənməsində, postmünaqişə dövründə proseslərin normallaşmasında nə qədər səmimi olduğu üzə çıxacaqdır.

Əli müəllim, bir də, fürsətdən istifadə eləyib, Avropa Parlamentində keçirilən seçkilərlə bağlı da bir-iki kəlmə demək istəyirəm. Bildiyiniz kimi, Avropa Parlamentində keçirilən seçkilər heç də ürəkaçıcı olmadı. Sağ təmayüllü

ifrat partiyalar Avropa Parlamentində çox səs qazandılar. Mən hesab edirəm ki, bu, daha çox islamofobiya, türkofobiya və Azərbaycanofobiya trendlərinin artacağından xəbər verir. Ancaq təəssüflər olsun ki, bu, reallıqdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm. Hörmətli Əli müəllim, hörmətli deputatlar. 1993-cü il 15 iyun tarixi Azərbaycan xalqının tarixində çox mühüm və həlledici bir təqvim idi. 1991-ci ildə SSRİ-nin süqutu ilə digər sovet respublikaları kimi Azərbaycan da öz müstəqilliyinə qovuşdu. Lakin müstəqil dövlət kimi Azərbaycanın gələcəyi haqqında nikbin nə isə demək üçün əsaslar mövcud deyildi. Ümumiyyətlə, dövlətin müstəqilliyindən danışmaq üçün, hər şeydən öncə, gərək o ifadənin bir mühüm tərəfi olsun. Yəni dövlətin özü mövcud olsun. Heydər Əliyev Azərbaycanda ikinci dəfə ali siyasi hakimiyyətə qayıdana qədər dövlətin əsas əlamətləri belə mövcud deyildi. Siyasi və hüquqi kontekstdə, bildiyimiz kimi, dövlətin əsas əlamətlərindən biri siyasi hakimiyyətin mövcudluğudur. Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycanda siyasi hakimiyyət, demək olar ki, oturuşmamışdı. Düzdür, iqtidar formalaşmışdı, amma iqtidarın içində də iqtidarlar var idi. Belə olan halda, sözsüz ki, dövlətin hədəfi də ola bilməzdi, o hədəflərə çatılması üçün mexanizmlər də ola bilməzdi. Bu baxımdan biz deyəndə ki, müasir müstəqil Azərbaycanın memarı, qurucusu Heydər Əliyevdir, bunun çox ciddi siyasi və hüquqi əsasları var. Yəni Azərbaycan Respublikası, sözün əsl mənasında, öz müstəqilliyinə Heydər Əliyevin hakimiyyətinə qayıtmasından sonra qovuşdu. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra dərin dövlət idarəçiliyi təcrübəsinə söykənərək dövlət idarəetmə sistemini for-

malaşdırdı. Çünki onun özü də hər zaman vurğulayırdı ki, səmərəli, çevik dövlət idarəetmə sistemi olmasa, hər hansı bir istiqamətdə uğurlu fəaliyyət göstərmək mümkün olmaz.

Azərbaycan üçün həmin dövrdə ən məhdud resurs, – hesab edirəm ki, məhdud sözü də burada artıqdır, – ümumiyyətlə, olmayan resurs ictimai-siyasi sabitlik idi. Heydər Əliyev qısa zaman kəsiyində yenə də öz iradəsinə, məhz Ulu Öndər amilinə söykənərək Azərbaycan xalqının həmrəyliyini təmin edə bildi. Ölkədə ictimai-siyasi sabitliyi şərtləndirəcək addımlar ata bildi. Məhz bu baza əsasında da milli iqtisadi sistem quruculuğu istiqamətində addımlar atdı. Bu iki baza əsasında isə milli ordu quruculuğunu həyata keçirməyə başladı. Ordumuz gücləndikcə, beynəlxalq münasibətlər sistemində Azərbaycanın yeri möhkəmləndi, təsirli rolu formalaşmağa başladı və Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya bizi uğurdan-uğura aparmaqdadır.

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Çox sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli rəsmilər. Sabah Azərbaycan xalqı öz tarixinin ən şərəfli, qürurlu günlərindən birini qeyd edəcək. 15 iyun Azərbaycan xalqının faciələrdən, dağılmaqdan, məhv olmaqdan xilas olunduğu gündür. Həmin dövr, eyni zamanda, Azərbaycan xalqının ən ağır, ən mürəkkəb dövrlərindən biri kimi xarakterizə olunmalıdır.

1918-ci ildə böyük Azərbaycan xalqı ilk müstəqil dövlətini qurdu. Ancaq bu dövlət uzun müddət yaşaya bilmədi. 1991-ci ildə biz yenidən müstəqilliyimizi bərpa etdik. Amma biz tam müstəqil ola bilmədik. Qeyd etdiyim kimi, Azərbaycan artıq vətəndaş müharibəsi ərəfəsində idi, ermənilər torpaqlarımızı işğal edirdilər və həmin dövrdə Azərbaycanı bu ağır durumdan yalnız bir böyük şəxsiyyət xilas edə bilərdi. O da Ulu Öndər Heydər Əliyev idi. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldi. Həmin dövrü mən yaxşı xatırlayıram, bütün Azərbaycan xalqının gözü Naxçıvanda, Ulu Öndərdə idi. Biz həmin dövrdə o bölgənin insanları kimi televizorun qarşısında gözləyirdik ki, Azərbaycana sahib çıxa biləcək bir şəxs gələcək və Azərbaycanı bu bəlalardan, bu müsibətlərdən xilas edəcək.

Həmin dövrdə artıq ermənilər Beyləqana doğru irəliləyirdilər, nəinki indi azad etdiyimiz ərazilər, ermənilərin məqsədi həm də, bütövlükdə, Azərbaycanı işğal etmək idi. Ulu Öndər öz həyatını riskə ataraq, Bakıya gələrək Azərbaycanı bu müsibətlərdən, faciələrdən xilas etdi. Biz yaxşı xatırlayırıq, Biləsuvarda qurulan postları, Azərbaycanın müxtəlif bölgələrində seperatizmin getdikcə daha da artdığını, dini müstəvidə gərginliyin daha da möhkəmləndiyini. Həmin 15 iyun Azərbaycan xalqının yenidən müstəqilliyinə qovuşduğu, yenidən gücləndiyi bir tarixdir. Azərbaycan ağır günlərdən xilas oldu.

Mən, eyni zamanda, onu da qeyd etmək istəyirəm, bu gün təəssüf ki, bəzən həmin dövrü xatırlayarkən bəzi insanlar o günləri unudurlar. İnsanlar adi çörək tapa bilmirdilər. Çörək növbəsində dururduq, saat 11-də deyilirdi ki, artıq çörək yoxdur, bitibdir. Biz həmin günlərdən bu günə gəldik çıxdıq. Bugünkü qələbəmizin, bugünkü zəfərimizin də təməli o dövrdə qoyuldu.

Ulu Öndərin ən böyük xidmətlərindən biri də cənab Prezident kimi bir şəxsiyyətin yetişdirilməsi, Azərbaycana bəxş edilməsi idi. Məhz onun təməlini qoyduğu, müxtəlif sahələrdə həyata keçirdiyi siyasət nəticəsində bax, bu günə gəldik. Bu gün bütün Qarabağ Azərbaycanın nəzarətindədir, bütün torpaqlarımızı azad etmişik və biz əminik ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan daha da güclənəcək.

**Sədrlik edən.** Sağ olun. Naqif Həmzəyev. Sonuncu çıxış Bəhruz Məhərrəmovun çıxışı olacaq, 10-cu çıxış. Naqif Həmzəyev. Buyurun.

**N.Həmzəyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli hökumət üzvləri, qonaqlar və media nümayəndələri. İlk öncə 15 iyun Milli Qurtuluş Günü münasibəti ilə hər birinizi ürəkdən təbrik edirəm. İcazənizlə, seçicilərin müraciətləri əsasında formalaşmış bəzi təklifləri nəzərinizə çatdırmaq istəyirəm. Elektron xəritələrdə, naviqatorlarda yerlərdəki dəyişikliklər sistemə gec əlavə olunur. Bu da turistlərin və sürücülərin yol hərəkət qaydalarını pozmalarına, qadağan olunmuş yollarda hərəkət etmələrinə səbəb olmaqdadır. Xüsusi ilə də paytaxtdankənar rayon və şəhərlərdə dediyim problem daha qabarıq özünü göstərməkdədir. Aidiyyəti qurumlardan xahiş edirəm ki, bu məsələlərə diqqəti artırsınlar. Eyni zamanda, bilirsiniz ki, parklanma yerlərində fiziki qüsurlu sürücülər üçün xüsusi yerlər ayrılıbdır, bu, təqdirəlayiq addımdır. Bununla yanaşı, mən təklif edirəm ki, parklanma yerlərində elektrikli avtomobillər üçün də xüsusi yerlər ayrılsın. Bunun nəticə etibarı ilə elektromobillərə keçidi daha da sürətləndirməyə azacıq da olsa dəstək olacağını düşünürəm.

Bununla yanaşı, xanım sədr, nəzərinizə çatdırım ki,

Gəncə şəhərindən Daşkəsən istiqamətində hərəkət etmək üçün əsasən iki yoldan istifadə olunur. Bunlar Təbriz küçəsi və 28 May prospektidir. Uzun müddətdir, bu yollarda su-kanalizasiya layihələri həyata keçirildiyindən, bu yolların tam istifadəyə verilməsi mümkün olmamışdır. Bununla yanaşı, şəhərin mərkəzində yerləşən Atatürk prospektində də çox təəssüflər olsun ki, biz eyni problemlə qarşılaşırıq, yalnız güclü avtomobillərlə bu yollarda hərəkət etmək mümkündür. Bu baxımdan hökumət üzvlərinin də burada olmağından istifadə edərək, xahiş edirəm, mümkündürsə, aidiyyəti qurumlara azacıq da olsa əlavə vəsait ayrılsın ki, bu yollar tam təmir olunub istifadəyə verilənə qədər bu yollardakı o çuxurlar ən azından yamansın. Çünki yay aylarında bizim Gəncə sakinləri Xoşbulaq yaylağına mütəmadi olaraq səfər edirlər, turistlər də bu yoldan çox istifadə edirlər. Bu da nəticə etibarı ilə, çox təəssüflər olsun ki, müəyyən narahatlığa gətirib çıxarır.

Bununla yanaşı, mən Bakı–Ağstafa–Gəncə istiqamətində qatar səfərlərinin sayının iki dəfəyə qədər artırılması münasibəti ilə hər birimizi təbrik edirəm və cənab Prezidentə dərin təşəkkürümüzü bildiririk ki, gəncəlilərin bu xahişi nəzərə alındı və xüsusi ilə də 15 iyun Milli Qurtuluş Günü ərəfəsində bu dəyişikliyin edilməsi, mən düşünürəm ki, hər kəs, əsasən də, bizim Qərb regionunda yaşayan vətəndaşlar üçün əla bir təbrik, əla bir xəbər oldu. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Sabah Azərbaycan xalqı Azərbaycan tarixinin ən şanlı günlərindən birini qeyd edəcək. 1993-cü

ildə Milli Liderin yenidən hakimiyyətə gəlməsi yalnız siyasi idarəetmədə deyil, eyni zamanda, iqtisadiyyatda tənəzzülün aradan qaldırılmasına və daha qısa zamanda stabilliyin və 1996-cı ildən başlayaraq iqtisadi artımın əldə edilməsinə imkan yaratdı. 1993-cü il Azərbaycan iqtisadiyyatı üçün həm tənəzzül, həm də, təbii ki, bütün iqtisadi göstəricilərdə neqativ meyllərin dərinləşməsi ili idi. Məhz Milli Liderin hakimiyyətə qayıtması ilə çox qısa zamanda islahatlara başlanılması, iqtisadi və sosial sahədə uğurların əldə edilməsinə imkan verdi. Artıq 1996-cı ildə Azərbaycan iqtisadiyyatı 1,3 faiz böyüdü və daha sonrakı illərdə Azərbaycanda ÜDM daxil olmaqla makroiqtisadi göstəricilərin yaxşılaşması və iqtisadi artımın sürətlənməsi müşahidə olundu. Sadəcə, iki makro rəqəmi qeyd etmək istərdim. Təbii ki, bütün bunlar məhz Milli Liderin hakimiyyətə qayıtmasından sonra Azərbaycan iqtisadiyyatının qazancını bir daha təsdiq edir. Əgər 1993-cü ildə Milli Lider yenidən hakimiyyətə qayıdan zaman Azərbaycan dövlət büdcəsinin gəlirləri 100 milyon manat idisə, bu gün bizim müzakirə etdiyimiz büdcə layihəsində büdcə gəlirləri 36 milyard manatdan çoxdur, büdcə xərcləri 40 milyard manata çatır. Yəni praktik olaraq 1 milyard manata çatmayan büdcə xərclərimiz artıq 40 milyard manata çatıb. Eyni zamanda, 1993-cü ildə Azərbaycanda ümumi daxili məhsulun həcmi 375 milyon manat idisə, artıq bu rəqəm 123 milyard manatdan artıqdır. Praktik olaraq rəqəmlər göstərir ki, bir tərəfdən, qısa zamanda stabilliyin əldə edilməsi, eyni zamanda, iqtisadi artıma nail olunması həm də ondan xəbər verir ki, Milli Qurtuluş Günü Azərbaycan iqtisadiyyatının tənəzzüldən qurtulduğu gündür.

Bu, Azərbaycan iqtisadiyyatı üçün yeni imkanlar deməkdir və Azərbaycan iqtisadiyyatı üçün bu yeni imkanlar

cənab Prezidentin rəhbərliyi ilə son 21 ildə daha da dərinləşdi. O baxımdan bu gün bizim əldə etdiyimiz zəfərin banisi Milli Liderimiz olmaqla yanaşı, eyni zamanda, Milli Qurtuluş Günü həm də Azərbaycan ərazi bütövlüyünün, eləcə də suverenliyinin bərpası, bizim üçün böyük zəfərin əldə edilməsində aparıcı bir gün oldu. Bu gün biz əldə etdiyimiz zəfərə, eyni zamanda, ərazi bütövlüyümüzün və eləcə də suverenliyimizin tam bərpa olunmasına məhz Milli Qurtuluş Günündə qazandığımız tarixi günə görə borcluyuq. Ona görə mən bu gün münasibəti ilə bütün həmkarlarımızı və eləcə də qonaqları təbrik edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Fəzail müəllim, yazılmısınız, buyurun.

**F.Ağamalı**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Mən çox təəssüf edirəm ki, bu gün iclasımızın saat 10-da keçirilməsi ilə bağlı mənə məlumat verilməyibdir. Mən bugünkü o 3 dəqiqəlikdə son dərəcə vacib bildiyim məsələ ilə bağlı, yəni qurtuluşla bağlı fikirlərimi ifadə etmək istəyirəm. Bu, partiyamızın mövqeyidir. Ona görə də, xahiş edirəm, mənə şərait yaradın. İmkan varsa, mən sözümü başlaya bilərəmsə, başlayım.

Sabah istiqlalımızın, dövlətçiliyimizin, cəmiyyətimizin anarxiyadan, vətəndaş müharibəsi təhlükəsindən xilas edilməsinin 30 ili tamam olur. 15 iyun bəşəriyyətin nadir tarixi şəxsiyyətlərindən olan, müasir dövlətçiliyimizin və əldə etdiyimiz bütün uğurların banisi Ulu Öndər Heydər Əliyevin ideyalarının nəhəng olduğu qədər də çətin vəzifələrinin başlandığı gündür. Silahlı qarşıdurmaların yox edilməsinin, erməni işğalının dayandırılmasının, milli həmrəyliyimizin əsaslarının yaradılmasının, ölkəmizə böyük dividentlər gətirən neft strategiyasının başlanğıcı və

müasir milli dövlətçiliyimizin doğum günü olan 15 iyun Ulu Öndərimizin bioqrafiyasında ən şanlı səhifələrdən biridir. Bu gün beynəlxalq aləmdə ciddi nüfuz sahibi və bölgədə lider dövlət olan Azərbaycanın bütün uğurları məhz 15 iyun 1993-cü ildən qaynaqlanır.

Ulu Öndərimizin böyük fədakarlığı və gərgin əməyi hesabına yaradılan müasir, müstəqil Azərbaycan dövləti cənab Prezident İlham Əliyevin müdrik siyasəti, qətiyyəti, iradəsi və tükənməyən enerjisi və potensialı ilə daha yüksək zirvələri fəth etməkdədir. 44 günlük Vətən müharibəsi və 10 saatlıq antiterror əməliyyatı, erməni faşizmi üzərindəki tarixi qələbəmiz, ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsi məhz Ulu Öndərimizin yaratdığı dövlətçilik strategiyasının məntiqinə söykənir. Bu gün Ulu Öndərimizin ruhu şaddır. Çünki onun arzu etdiyi günləri yaşamaqdayıq. Ulu Öndərimizin bütün vəsiyyətləri bütün sahələrdə yerinə yetirilməkdədir. Dediyi kimi, artıq Azərbaycan səmada günəş kimi parlamaqdadır. Şad olan ruhun əbədi olsun, Ulu Öndərimiz!

Təşəkkür edirəm, Sahibə xanım. Şərait yaratdığınıza görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov.

**B.Məhərrəmov.** Hörmətli sədr, əziz həmkarlar. Azərbaycan dilinin izahlı lügətinə əsasən qurtuluş azad olma, xilas olma, nicat tapma deməkdir. 31 il öncə Ulu Öndərin Azərbaycan xalqının imdadına yetişməsinin də ən yaxşı ifadə ekvivalenti elə qurtuluşdur. Heydər Əliyevin Bakıya qayıtması hər kəs üçün qurtuluş oldu, xalq qardaş qırğını, Azərbaycan dövlətçiliyi isə tarixin utanc dövründən xilas oldu. Hətta bu qayıdış öz xəyanətkar və qorxaq mahiyyəti ilə bütün faciələrin təməlində dayanan cinayətkar AXC–Müsavat funksionerləri üçün belə nicat

oldu. Onları elə özləri kimi qiyamçıların dar ağacından xilas etdi. Baxmayaraq ki, o hakimiyyəti zorla mənimsəməklə xalqa qarşı ən ağır cinayət törətmiş AXC iqtidarı buna qədər bütün potensialını Heydər Əliyevlə mübarizəyə, onun 18 il ərzində formalaşdırdığı milli müstəqillik üçün təməl rolunu oynayan potensialı dağıtmağa sərf etmişdilər.

İndi bəziləri, xüsusən də ideoloji olaraq zəhərlənmiş tarixçilər həmin adamları milli azadlıq hərəkatı fəalları, istiqlalçılar kimi təqdim etmək istəyir. Amma Azərbaycan tarixində milli ruha, azadlıq ideallarına, AXC–Müsavat xuntası qədər zərbə vurmuş ikinci qüvvə yoxdur. Bu, birdəfəlik dərk edilməlidir ki, Azərbaycan xalqının istiqlal yolunda meydan şousunun heç bir rolu olmayıb. Əksinə, xalqın sovetlərə inamı, Heydər Əliyevin siyasi hakimiyyətdən ədalətsiz formada uzaqlaşdırılması ilə qırılmış insanlar məhz Ulu Öndərin portretləri ilə ayağa qalxmışdı. Özünə Xalq Cəbhəsi deyən, əslində isə, Qorbaçovun yenidənqurma siyasətinin elementi kimi mərkəzdən idarə olunan qruplaşmanın tribunaları ələ keçirməsi isə hərəkatın məramını dəyişdi. Sovet rejimi prosesi arzuladığı istiqamətdə idarə etməyə başladı. O dövrdə Qorbaçov rejimi ittifaq dövlətlərində müstəqilliyə meyilli liderləri hədəfə almışdı. Amma Azərbaycan Xalq Cəbhəsindən başqa heç bir yerli təsisat öz soydaşına qarşı Mərkəzlə birləşmədi. Yalnız bu satqınlar potensial rəqib kimi baxaraq bütün imkanlarını Ulu Öndərin fiziki məhvinə səfərbər etmişdilər. SSRİ məkanında ikinci bir milli qüvvə olmayıb ki, hakimiyyət naminə ərazi bütövlüyünü qurban versin. ACX–Müsavat iqtidarı bunu etdi. Şuşa və Laçını satıb iqtidara gəldilər, Kəlbəcəri verib hakimiyyətdə qalmağa çalışdılar. 1993-cü ilin yayından

isə Heydər Əliyevdən qisas almaq üçün özlərinə bağlı qüvvələri geri çəkməklə Füzuli, Cəbrayıl və Zəngilanı qumara qoydular. Amma tarix göstərir ki, belə cılız marionetlərin milli iradə qarşısında şansı ola bilməz və müdrik xalq da "Heydər Əliyev" dedi.

Əslində, Azərbaycan xalqının müstəqillik yolunda mübarizəsinin əsas məqsədi də məhz AXC xuntasından qurtulmaq, Heydər Əliyevə qovuşmaq idi. Ona görə də qurtuluş həm də real müstəqillik tariximizin başlanğıcıdır. Bu gün Heydər Əliyev siyasi kursunun cənab İlham Əliyevin timsalında davam etməsi isə hərbi-siyasi qələbələrlə, iqtisadi inkişaf, güclü mərkəzi hakimiyyətlə, ən əsası isə azad Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuqla qurtuluşun əbədiliyinə təminat verir. Bayramınız mübarək olsun. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən çıxış edənlərin hamısına təşəkkür edirəm. Bəli, bizim iclasımız Azərbaycan tarixində taleyüklü əhəmiyyət daşıyan bir hadisənin ildönümü ərəfəsində keçirilir və burada hər bir çıxışda deyildi, sabah bizim xalqımız milli qurtuluş bayramını dərin ehtiramla qeyd edəcək.

Onu da qeyd etmək lazımdır ki, illər keçdikcə biz Ulu Öndər Heydər Əliyevin o dövrdə göstərdiyi fədakarlığı və qəhrəmanlığı daha da yaxşı anlayırıq. Ölkədə faktiki olaraq qardaş qırğını başlanmışdı, erməni işğalı, separatçılıq meyilləri dövlətin varlığını təhlükə altına almışdı və yalnız xalqın təkidli tələbi ilə Heydər Əliyevin siyasi və dövlət rəhbərliyinə qayıtması Azərbaycanın parçalanması və məhv olması fəlakətinin qarşısını aldı. Ulu Öndər siyasi iradəsi, qətiyyəti, zamanın çağırışlarına yaradıcı münasibət bildirmək və düzgün qərarlar qəbul etmək qabiliyyəti sayəsində Azərbaycan dövlətini qoruyub saxladı,

möhkəmləndirdi və davamlı inkişaf yoluna çıxardı. Onun geosiyasi əhəmiyyətini artırdı, ölkəmizi qlobal əhəmiyyətli iqtisadi layihələrin mərkəzinə çevirdi.

Ulu Öndərin 30 ildən artıq bir dövrdə Azərbaycanın rəhbəri kimi fəaliyyətinin təhlili göstərir ki, müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev dühasının məhsuludur.

Hörmətli deputatlar, Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu olduğu kimi, bugünkü Azərbaycan parlamentinin də banisidir. Biz bunu sizinlə dəfələrcə demişik, bizim üçün çox qürurverici halıdır ki, Ümummilli Liderin böyük siyasətə qayıdışı məhz bu binada başlanmışdır.

Hörmətli həmkarlar, Ulu Öndərin qurtuluş və quruculuq missiyası bu gün eyni əzm və iradə ilə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasət Azərbaycanı geniş bir bölgədə söz sahibi olan, dünyada səsi eşidilən qüdrətli bir dövlətə çevirmişdir.

Yaradılmış böyük siyasi, iqtisadi, hərbi potensial Ümummilli Liderimizin ən mühüm vəsiyyətini şərəflə yerinə yetirməyə imkan vermişdir – müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və 1 günlük antiterror tədbirlərində əldə edilən möhtəşəm qələbələr sayəsində dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa olunmuş, tarixi ədalət öz yerini tutmuşdur.

Hörmətli həmkarlar, bu gün Azərbaycan öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Əminliklə söyləmək olar ki, dövlət başçısı cənab İlham Əliyevin müstəsna liderlik keyfiyyətləri, siyasi məharəti və səriştəsi qarşıya qoyulan vəzifələri bundan sonra da uğurla yerinə yetir-

məyə imkan yaradacaq. Azərbaycan dövləti daim var olacaq, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “əbədiyyətə qədər yaşayacaqdır”.

Hörmətli həmkarlar, bir neçə gündən sonra xalqımız insanları mərhəmətə və həmrəyliyə dəvət edən müqəddəs Qurban bayramını da qeyd edəcək.

Mən təklif edirəm ki, Milli Qurtuluş Günü və Qurban bayramı münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq, Azərbaycan dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. *(Alqışlar.)*

Hörmətli həmkarlar, mən bayramlar münasibəti ilə sizin hər birinizi ürəkdən təbrik edirəm, qonaqlarımızı və eyni zamanda, media nümayəndələrini də təbrik edirəm!

Hörmətli həmkarlar, biz indi işimizə davam edirik, gündəliyin məsələlərinə keçirik. Gündəlik sizin hamınızda var, bilirisiniz ki, bu gün bizim gündəliyimizdə 11 məsələmiz var. Gündəliyin ilk 4 məsələsi dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri ilə bağlıdır. Bu məsələlərin müzakirəsi ilə əlaqədar hörmətli hökumət üzvləri və nümayəndələri iclasımızda iştirak edirlər və biz yenə də onları salamlayırıq.

İndi isə gündəliyin 1-ci məsələsinə keçirik. Bu məsələ Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsidir. Qeyd edim ki, layihə üçüncü oxunuşda təqdim olunur. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, icazənizlə, fürsətdən istifadə edərək, mən də Sizi və bütün hər kəsi Azərbaycan xalqının taleyini dəyişən, böyük ictimai-siyasi və tarixi hadisə olan Milli Qurtuluş Günü münasibəti ilə təbrik edirəm. Bu gündən başlayaraq keçən 30 il ərzində məhz Ulu Öndər Heydər Əliyev yolu ilə irəliləyən və bu siyasətə sadiq qalan Azərbaycan sonda möhtəşəm zəfərlərə nail oldu və mən düşünürəm ki, bu gün möhtərəm cənab Prezident İlham Əliyev həm Azərbaycan, həm də bütün dünya iqtisadi və siyasi arenasında öz layiqli yerini tutmaqdadır. Mən sizin hər birinizə məhz bu yolda, Azərbaycan dövlətinə və xalqına xidmət yolunda uğurlar arzu edirəm və bayramınızı bir daha təbrik edirəm.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri və media nümayəndələri. Qeyd edim ki, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi, hörmətli xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, üçüncü oxunuşda müzakirə olunur. Birinci və ikinci oxunuşlar zamanı layihə haqqında kifayət qədər geniş məlumatlar vermişik. Hörmətli həmkarlarımın çıxışlarına, sual və təkliflərinə isə layihənin ikinci oxunuşunun müzakirəsi zamanı hörmətli maliyyə naziri tərəfindən geniş şərh verilmişdir.

Qeyd edim ki, 2023-cü ildə dövlət büdcəsinin gəlirləri 33 milyard 890,5 milyon manat proqnoza qarşı 35 milyard 236,4 milyon manat təşkil etmişdir. 2023-cü ilin dövlət büdcəsində təsdiq olunmuş 36 milyard 624,8 milyon manat xərcin 99,5 faizi icra olunmuşdur. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2023-cü ilin dövlət büdcəsindən cəm olaraq 5 milyard

881,6 milyon manat vəsait yönəldilmişdir.

Sosial yönlü xərclər 2023-cü ilin dövlət büdcəsinin icrasında xərclərin 35,8 faizi və ya 13 milyard 50 milyon manat həcmində olmuşdur.

Ölkənin müdafiə potensialının gücləndirilməsinə və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılmasına dövlət büdcəsi xərclərinin 19,9 faiz həcmində və ya 7 milyard 246,9 milyon manat vəsait yönəldilmişdir.

2023-cü il dövlət büdcəsi kəsirinin yuxarı həddi 2 milyard 734 milyon manat məbləğində təsdiq olunsa da, faktiki kəsir 1 milyard 121,5 milyon manat təşkil etmişdir ki, bu da ümumi daxili məhsulun cəmi 1 faizi deməkdir.

Büdcə qaydasının əsas göstəriciləri hədəflənən yuxarı hədləri aşmamışdır. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisi 22,5 faiz və ya hədəf göstəricidən 2,5 faiz az, dövlət borcunun ümumi daxili məhsula nisbəti isə 21,8 faiz və yaxud hədəf göstəricidən 8,2 faiz bənd az olmuşdur.

Hörmətli həmkarlar, bu kontekstdə bir məsələni xüsusi qeyd etmək istərdim. Dövlət borcunun ümumi daxili məhsula nisbətinin müəyyən edilmiş hədəflərdən aşağı olması dövlət borcunun həcmi ilə narahatlığa heç bir əsas yaratmır. Əksinə, əlavə fiskal fəzanın mövcudluğunun bir göstəricisidir. Amma eyni zamanda, dövlət borcunun artmasına təsir edən dövlət qiymətli kağızlarının orta gəlirlilik səviyyəsinin yüksək olması və investorlar şəbəkəsində dövlət büdcəsinə birbaşa və ya dolayı yolla maliyyələşən dövlət təşkilatlarının mövcud olmasını biz gələcəkdə büdcə fəlsəfəsinə zərər verə biləcək və ya rəqabət mühitinə təsiredici risk faktorları kimi qəbul edirik.

Hesab edirik ki, daxili dövlət borcuna xidmətlə bağlı

xərclərin azaldılması üçün çoxtərəfli və uzlaşdırılmış tədbirlərin görülməsinə, dövlət büdcəsindən maliyyələşən dövlət təşkilatlarının vəsaitləri hesabına dövlət istiqrazlarının alınmasına isə məhdudiyyətlərin tətbiq edilməsinə ehtiyac yaranmaqdadır. Bu istiqamətdə yeni tənzimləmələrin tətbiq edilməsini təklif etmək istərdik. Bununla bağlı ehtiyac olarsa, gələcəkdə müvafiq dövlət qurumları ilə Milli Məclisin müvafiq komitəsi arasında görüşün keçirilməsi  məqbul hesab oluna bilər.

Bütün bunlarla yanaşı, yekun olaraq hesab edirik ki, 2023-cü il üçün dövlət büdcəsinin icrası Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev müəyyən etdiyi  inkişaf və dəstək kursunun ardıcıl şəkildə həyata keçirilməsi, strateji dövlət vəzifələrinin yerinə yetirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizlik məsələlərinin həlli, işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması və iqtisadiyyatın stimullaşdırılması üçün qarşıya qoyulan hədəflərə  çatmaqda lazımi maliyyə təminatı yaratmışdır.

Bütün bunları nəzərə alaraq, hörmətli həmkarlarımı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini üçüncü oxunuşda da dəstəkləmək üçün dəvət etmək istərdim. Diqqətinizə görə minnətdaram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Görürəm, heç kimin sözü, sualı yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 10.44 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, nəzərinizə çatdırım ki, gündəliyin qalan 10 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Onu da xatırladım ki, növbəti 3 məsələ bu ilin dövlət büdcəsində və büdcə zərfinə daxil olan digər iki sənəddə dəyişiklik edilməsi barədə möhtərəm cənab Prezidentin Milli Məclisə təqdim etdiyi qanun layihələridir.

Hörmətli həmkarlar, hər 3 qanun layihəsi büdcə zərfi ilə bağlı olduğuna görə mən təklif edirəm, həmişə olduğu kimi, biz təqdimatları ayrılıqda dinləyək, müzakirəni bir yerdə aparaq, səsverməni də ayrılıqda keçirək. İndi isə 2-ci məsələyə keçirik. Bu məsələ "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, mən yenə də Sizdən xahiş edirəm, Siz bir məlumat verin. Buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hökumət üzvləri və media nümayəndələri. Bildirmək istəyərdim ki, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsinin Milli Məclisdə birinci oxunuşda müzakirəsi zamanı layihə haqqında həm bizim, həm də maliyyə naziri hörmətli Samir müəllim tərəfindən ətraflı məlumat verildiyindən, mən ikinci oxunuşda təqdim edilən layihə haqqında qısa məlumat vermək istərdim.

İlk olaraq onu deyim ki, qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında ikinci oxunuş üçün geniş müzakirə edilmiş, müzakirədə müvafiq dövlət orqanlarının və Hesablama Palatasının nümayəndələri iştirak etmişlər.

2024-cü il dövlət büdcəsinin gəlirlərinin 2 milyard 180 milyon manat və ya 6,4 faiz artırılaraq 36 milyard 353 milyon manata, xərclərinin 2 milyard 944,3 milyon manat artırılaraq 39 milyard 707,3 milyon manata, dövlət büdcə kəsirinin isə 764,3 milyon manat genişləndirilərək 3 milyard 354,3 milyard manata çatdırılması təklif olunur.

Artırılan gəlirlərin 51,1 faizinin qeyri-neft, 48,9 faizinin isə neft gəlirləri hesabına formalaşması təklif olunur. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xətti ilə daxilolmaların 1 milyard 405 milyon artırılaraq 15 milyard 270 milyon manata, Dövlət Gömrük Komitəsi xətti ilə daxilolmaların isə 500 milyon manat artırılaraq 6 milyard 400 milyon manata çatdırılması təklif olunur.

Eyni zamanda, mövcud daxilolma mənbələrindən əlavə olaraq dövlət büdcəsinə Mərkəzi Bankın mənfəətinin sərbəst qalığından 250 milyon manat, nəqliyyat vasitələrinin utilizasiya fonduna isə 25 milyon manat daxilolma planlaşdırılmışdır.

Təsdiq olunmuş dövlət büdcəsinin mövcud olan xərcləri arasında aparılması planlaşdırılan optimallaşmanın həcmi isə 851,8 milyon manat təşkil edəcəkdir.

Beləliklə, dövlət büdcəsində gəlirlərin artması, xərclər arasında aparılan optimallaşma və kəsirin genişlənməsi hesabına yaranan əlavə vəsaitlərin aşağıdakı istiqamətlərdə yönəldilməsi təklif olunur.

Birinci, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçiriləcək tikinti,

bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi üçün tədbirlərin maliyyələşdirilməsinə əlavə 1 milyard 160,3 milyon manat;

İkincisi, müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin daha da artırılması sahəsində tədbirlərin maliyyələşməsinə əlavə 807 milyon manat;

Üçüncüsü, avtomobil yolu, elektrik enerjisi, su təchizatı və digər sahələr üzrə infrastruktur layihələrin həyata keçirilməsinə əlavə 1 milyard 184 milyon manat, Osaka "Expo 2025" dünya sərgisində iştirak, beynəlxalq münasibətlər, beynəlxalq fəaliyyət üzrə xərclər, şəhərdaxili sərnişin daşınması, nəqliyyat vasitələrinin utilizasiya fondunun xərcləri və digər zəruri xərclər, əlavə 498,8 milyon manat, zəruri əsas alışlar, əsaslı təmir və yenidənqurma və digər əsaslı xərclər üçün isə 146 milyon manat vəsaitin sərf olunması planlaşdırılır.

Beləliklə, 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılma zamanı təsdiq edilmiş məlumatlarda ümumi daxili məhsulun ilkin təqdim edilmiş 118,3 milyard manatdan 121,3 milyard manata qədər artırılması, iqtisadi artım tempinin ilkin təqdim edilmiş 2,4 faizdən 3,8 faizə yüksəldilməsi əks olunmuşdur.

Qeyri-neft-qaz sektorunda real artım proqnozunun 2024-cü il üçün 4,6 faizdən 5,5 faizə qədər artırılması, neft-qaz sektorunda isə real artım proqnozunun mənfi 1,7 faizdən müsbət 0,8 faizə dəyişdirilməsi təklif olunmuşdur.

Yenidən baxılan büdcə zərfində hesablamalar neftin bir barelinin orta illik qiymətinin təsdiq olunmuş layihədə nəzərdə tutulan qiymətdən 15 dollar artırılaraq 75 dollar səviyyəsinə uyğun həyata keçirilmişdir.

Yenidən baxılan icmal büdcənin gəlirləri 43 milyard 480 milyon manat, xərcləri isə 45 milyard 591,8 milyon

manat təklif olunmuşdur. Bu, təsdiq olunmuş göstəriciyə əsasən gəlirlər üzrə 4 milyard 482,5 milyon manat, xərclər üzrə isə 3 milyard 215,6 milyon manat çoxdur. İcmal büdcə 2 milyard 111,8 milyon manat kəsirlə formalaşdırılır ki, bu da təsdiq olunmuş kəsirə nisbətən 1 milyard 267 milyon manat azdır.

Aparılan müzakirələr 2024-cü il dövlət və icmalı büdcələrinə yenidən baxılmanı Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin prioritet vəzifə olaraq müəyyən etdiyi işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, dövlətin milli təhlükəsizliyinin, müdafiə qabiliyyətinin və ordumuzun hərbi qüdrətinin daha da möhkəmləndirilməsi və digər istiqamətlərdə əlavə maliyyə təminatının yaratdığını deməyə əsas yaratmışdır.

Həmçinin təhlillər göstərir ki, 2024-cü ilin dövlət büdcəsinə dəyişikliklərin edilməsi haqqında qanun layihəsi 2024-cü ildə əlavə xərclərin qarşılanması üçün maliyyə təminatının yaradılması, bu zaman cari və ortamüddətli makroiqtisadi və fiskal dayanıqlığa xələl gətirməməsi hədəfləri gözlənilməklə tərtib olunmuşdur.

Hörmətli həmkarlar, beləliklə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda təklif edilən dəyişikliklərlə bağlı aparılan müzakirələri əhatəli və məhsuldar hesab edir. Hesab edirik ki, müzakirə etdiyimiz dövlət büdcəsinə dəyişikliklər layihəsi 2024-cü il üçün ölkəmizin qarşısında dayanacaq çağırışlara layiqli cavab vermək və bütün istiqamətlərdə dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaqdır.

Bütün bunları nəzərə alaraq, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda

dəyişiklik edilməsi barədə qanun layihəsini Milli Məclisin plenar iclasında ikinci oxunuşda da qəbul edilməsi üçün məqbul hesab edirik və deputat həmkarlarımı da bu layihələri bir daha dəstəkləməyə dəvət edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, 3-cü və 4-cü məsələlərə Əmək və sosial siyasət komitəsində baxılıb. Bildiyiniz kimi, bunlar Dövlət Sosial Müdafiə Fondunun 2024-cü ilin büdcəsi haqqında və İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında qanun layihələridir. Mən indi komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri, hörmətli qonaqlar və hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Qeyd olunan hər 2 büdcə qanun layihəsi, həm Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün dürüstləşdirilmiş büdcə layihəsi, həm də İşsizlikdən sığorta fondunun 2024-cü il üçün dürüstləşdirilmiş büdcə layihəsi barədə birinci oxunuş zamanı ətraflı məlumat verilmiş, müzakirələr aparılmışdır. Layihələrə dair komitəyə iradlar bildirilməmiş, əlavə təkliflər daxil olmamışdır. Komitədə ikinci oxunuşda müzakirə zamanı hər iki layihənin olduğu kimi Milli Məclisin plenar iclasına çıxarılması tövsiyə edilmişdir.

Hörmətli xanım sədr, eyni zamanda, müzakirələr gedən dövrdə bəzi kütləvi informasiya vasitələrində, o cümlədən sosial şəbəkələrdə şayiə xarakterli belə bir məlumat yayılmışdır ki, guya sosial müdafiə və sosial təminat xərcləri azaldılır. Bu şayiələrin heç bir hüquqi, sosial,

iqtisadi əsası yoxdur. Əksinə, dürüstləşdirilmiş büdcədə Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 190 milyon manat artımla proqnozlaşdırılır. Bu artımın da səbəbi orta aylıq əmək haqqının artımındakı dürüstləşmə ilə bağlıdır.

Belə ki, 2023-cü ilin sonuna ölkə üzrə orta aylıq əmək haqqı 933 manat təşkil etmişdir. Həmin dövrdə büdcə müzakirələri zamanı büdcə qəbul edilərkən 2024-cü ildə orta aylıq əmək haqqının 980 manat olacağı proqnozlaşdırılırdı. Amma bu ilin birinci rübündə ölkədəki sosial-iqtisadi artım tempi imkan verir ki, bu ilin sonuna biz orta aylıq əmək haqqını daha 10 manat artıraraq 990 manat təmin edək.

Bu mənada orta aylıq əmək haqqının artım tempinə uyğun olaraq, qeyri-büdcə sektorunda əmək haqqının artımı nəzərdə tutulur və bu artımın hesabına Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 190 milyon manat artır. Gəlirlərin strukturunda dəyişiklik olacaqdır. Yəni Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində dövlət öhdəliklərinin maliyyələşdirilməsi məqsədi ilə dövlət büdcəsinə transferlər 160 milyon manat azaldılacaqdır. Bu da Dövlət Sosial Müdafiə Fondunun məqsədlərindən biridir.

Xatırlatmaq istəyirəm ki, bir zamanlar Dövlət Sosial Müdafiə Fondunun bütün büdcəsinin təxminən 50 faizə qədəri dövlət büdcəsindən transfer hesabına formalaşırdı. Çünki fondun yığım imkanları o qədər geniş deyildi.

Ölkədə aparılan iqtisadi islahatlar, uğurlu iqtisadi, sosial siyasət nəticəsində əmək haqlarının artım tempinin yüksəlməsi, gəlirlərin artması imkan verdi, o cümlədən şəffaflaşma prosesi Dövlət Sosial Müdafiə Fondunun imkanlarını genişləndirdi və artıq Dövlət Sosial Müdafiə Fonduna dövlət büdcəsindən transferlər bu dəyişikliklər də nəzərə alındıqdan sonra 15 faizdən bir az çox olacaqdır.

Bu da olduqca yaxşı göstəricidir.

O ki qaldı xərclərə, dürüstləşdirilmiş büdcədə Dövlət Sosial Müdafiə Fondunun xərclərində 30 milyon manatlıq artım nəzərdə tutulur. Bu artımın da 25 milyon manatı pensiya təminatı xərclərinin artırılmasına yönəldiləcək, 5 milyon manat isə Dövlət Sosial Müdafiə Fondunun aparatının və yerli strukturunun saxlanması xərclərinə əlavə ediləcəkdir.

İşsizlikdən sığorta fondunun gəlirlərində də 4 milyon 700 min manatlıq artım nəzərdə tutulubdur. Komitədə müzakirə zamanı fikirlər səsləndi ki, biz bu artımı niyə özünüməşğulluq proqramlarına yönəltmirik və biz bu artımı ötən ildən qalan vəsaitdən cari ilin xərclərinin azalmasına yönəldirik. Bunun da təşkilati, struktur əsası var. Belə ki, özünüməşğulluq proqramlarının 1 ildən çox bir müddətə hazırlanması və həyata keçirilməsi baxımından zaman lazımdır. Belə ki, regionun seçilməsi, özünüməşğulluq proqramına cəlb olunan şəxslərin, yaxud ailələrin seçilməsi, onların treninqlərə cəlb olunması, mal və vəsaitlərin alınması, verilməsi, bazarın öyrənilməsi, bu, bir ildən artıq müddət tutur. Yarımillik bir müddətə 4 milyon manatlıq vəsaitin oraya ödənilməsi faktiki olaraq mümkün deyil və bu, proqram üzrə olmayacaq. Amma gələn il bizim özünüməşğulluq proqramlarının, eləcə də artıq Milli Məclisin müzakirəsində birinci oxunuşdan keçmiş "Məşğulluq haqqında" Qanunda məqsədli proqramların tətbiq olunmasına və genişləndirilməsinə daha çox imkanımız olacaq. Beləliklə, həm iş yerlərinin açılması, həm özünüməşğulluq proqramları, həm haqqı ödənilən sosial işlərin maliyyələşdirilməsi, həm də treninqlərin, peşə hazırlığının aparılması istiqamətində gələn il daha çox vəsait xərclənəcəkdir və daha çox işlər

görüləcəkdir.

Hörmətli həmkarlar, qanun layihələri ikinci oxunuşun tələblərinə cavab verir. Xahiş edirəm, ikinci oxunuşda da dəstəkləyəsiniz. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Musa müəllim, mən təklif edirəm ki, Siz və komitənin üzvləri dediyiniz məsələlər barədə müsahibələr verəsiniz. Bu bir.

İkinci, Fərid müəllim, bizim televiziyada olan növbəti "Parlament saatı"nda – orada efir vaxtı çox olmur, ancaq yenə də qısa da olsa, – Musa müəllim mütləq əsas məzmunu çatdırsın.

Musa müəllim, təklif edirəm, bizim "Youtube" kanalımızda kiçik bir dəyirmi masa təşkil edəsiniz. Sahil müəllim də buradadır, nazirliyin işçilərini də, sizin komitədən, istəyirsiniz, ayrı komitələrdən də dəvət edə bilərsiniz. Xahiş edirəm, onu təşkil edin, belə bir dəyirmi masa mən düşünürəm ki, mütləq lazımdır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Söz istəyirsiniz? Buyurun.

**M.Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Tövsiyələriniz, həqiqətən də, çox gərəkli tövsiyələrdir. Artıq biz bu müsahibələri verməyə başlamışıq. Onu da hörmətli millət vəkillərinin diqqətinə çatdırım ki, DOST Mərkəzinin nəzdində "Dost" televiziyası açılıbdır, uğurla fəaliyyət göstərir. Biz artıq orada bu barədə də yaxın günlərdə müsahibələr vermişik. Sizin tövsiyələrinizi də nəzərə alaraq, komitə üzvlərinin hamısı bu barədə fəal mövqe müəyyən edəcəyik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. O müsahibələri indi verirsiniz, ya verəcəksiniz, ancaq mən düşünürəm ki, Milli Məclisin tribunasından da, efir, media tribunasından da mütləq səsləndirin. Siz müxtəlif komitələrdən çağıra bilər-

siniz. Düşünürəm ki, Tahir müəllimin komitəsinin üzvlərindən də həmin dəyirmi masada mütləq olmalıdır. Bunlar hamısı maliyyə ilə bağlı məsələlərdir. Çox sağ olun.

Hörmətli həmkarlar, bu məsələlər İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsindən də keçib. Xahiş edirəm, Tahir müəllim, qısa olaraq bir rəy verin. Əgər mümkündürsə, qısa, lazımdırsa, ətraflı da məlumat verə bilərsiniz. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Bizim komitə də həm Dövlət Sosial Müdafiə Fondunun, həm də İşsizlikdən sığorta fondunun 2024-cü ildə büdcəsinə edilən dəyişiklikləri məqbul sayır. Hesab edirik ki, hər iki fondun 2024-cü ildə iqtisadi dayanıqlığı ilə bağlı hər hansı bir riski yoxdur. Həmkarlarımı qanun layihələrini dəstəkləməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur. Bilirsiniz ki, biz qanun layihələrini əvvəlcə əsas kimi qəbul etməliyik. Ona görə də mən indi 2-ci məsələnin əsas kimi qəbul edilməsinə münasibət bildirməyinizi xahiş edəcəyəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.00 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

İndi isə 3-cü məsələdə olan qanun layihəsini mən əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.00 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

4-cü məsələni mən səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

İndi isə biz müzakirəyə keçirik. Yazılanlar var. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputatlar, hörmətli qonaqlar. Dövlət büdcəsinin artımını Qarabağın yenidən qurulması yönündə olması baxımından rəhbərlik etdiyim Milli Cəbhə Partiyası dəstəklədiyini bəyan edir.

Büdcəmiz ildən-ilə artır. Hesabatlar günü-gündən gözəlləşir, rəng çalarları daha cəlbedici olur. Amma real həyatımızda gördüyüm sosial dəyişiklik zəifdir. Əgər işsizliklə bağlı ayda 100 nəfər müraciət edirdisə, indi o

rəqəm daha da çoxdur. Sosial yardımla bağlı müraciətlər də çoxalıb, nəinki azalıb. Sosial xidmətlərlə bağlı işi isə qeyri-qənaətbəxş hesab edirəm. Xüsusən də həm Sosial Xidmətlər Agentliyinin, həm də Dövlət Sosial Müdafiə Fondunun büdcə xərcləmələrində səmərəsizlik və yanlışlıq görürəm, yanaşmaları yanlışdır, can yandırmaları isə diplomatların soyuqqanlığından da böyükdür. Sosial sahədə çalışan gərək mərhəmətli olsun, kövrək olsun, qəlbi vətəndaşın qəlbi ilə döyünüb, onun qəlbi kimi yansın. Vallah, bunu görmürəm. Əgər hər şey gözəldirsə, hər şey yaxşıdırsa, niyə şikayətlər azalmır, daha da çoxalır? Belə çıxır ki, büdcə vəsaitlərini xərcləyən bir sıra icra qurumları vəzifəsinin öhdəsindən gəlmir, vəsaiti doğru yönəltmir, narazılıqların azaldılması üçün konkret addımlar atmır. Vəzifə borcunu minnətlə yerinə yetirir, vətəndaşların haqlı müraciətlərinə laqeyd yanaşır və konkret olaraq bəlkə də nələrsə umur. Bunlar yolverilməzdir və bir sıra icra strukturları konkret olaraq narazılıqlar istehsal edib cəmiyyətimizə idxal edir. Bunun isə əzabını biz hamımız çəkirik.

Bir neçə konkret narahatlıqlarım var. İş yerlərinin açılması ilə bağlı duzlu-istiotlu hesabatlar da açıqlanır. Bəs bağlanan iş yerləri? Bağlanan şirkətlər, küsüb kənara çəkilən adamlar xeylidir və aldığım məlumatlara söykənib demək istəyirəm ki, bağlanan iş yerləri az qala açılan iş yerlərini üstələməyə başlayıb. Bunun cavabı varmı? Büdcə vəsaitlərinin xərclənmə effektivliyinin yoxlanılması ilə bağlı digər mexanizmlər üzərində işlənilməlidir. Çünki hazırkı monitorinq mexanizmləri aysberqin görünən hissəsinə işıq salır. Digər tərəfləri qaranlıq qalır və heç zaman günəş görmür. Bunları faktlar üzrə aidiyyəti məmurlarla ayrıca müzakirə etmək istəyirik. Büdcə xərclə-

rinin səmərəlilik faizi aşağı olduğuna görə nəzarət və monitorinq mexanizmlərinin əsaslı şəkildə təkmilləşdirilməsini təklif edirik. Daha iki məsələ barədə.

İlk, Sosial Xidmətlər Agentliyi ilə bağlı mən fikirlərimi açıqlamışdım. Cəmiyyətdə və burada hökumətin hesabatında, digər çıxışlarda demişəm ki, bu gün Azərbaycanda hələ də yaşı 70-i, 80-i keçən şəhid ailələri var, – onlar dünyasını bir aya, bu günə, sabaha, bəlkə də elə bu gün günortadan sonra dəyişə bilər, – hələ onlar evlə təmin olunmayıb. Bunlar niyə önə salınmır? Bununla bağlı mənim dəfələrcə qaldırdığım məsələlərə niyə bir dəfə də olsun nə rəsmi cavab verilib, nə də mənə aidiyyəti üzrə nə isə deyilib. Mən bunu doğru saymıram.

İkinci, ünvanlı dövlət sosial yardımı haqqında. Bəlkə də 30-40 dəfə danışmışam, demişəm, "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunun 7.1-ci maddəsi ehtiyacı olan insanların yardım almasını əngəlləyir. Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 saylı Qərarı da ünvanlı sosial yardıma ehtiyacı olan insanların yardım almasını birbaşa əngəlləyir, onların qabağına qaya qoyur. Bax, bununla bağlı da heç bir cavab ala bilmirəm. Amma biz gözümüzün önündə görürük ki, ehtiyacı olan insan bunu ala bilmir. Bunu kəndin icra nümayəndəsindən, icra başçısından, bələdiyyə sədrindən də soruşsan, əlləri, barmaqlar ilə göstərərlər ki, bir, iki, üç, beş, on nəfərə kömək olunmasa, acından ölər. Məhz onlara niyə yardım verilmir? Ola bilsin sənədləri düz deyil, ola bilsin ki, adlarında nələr isə var və sair. Amma biz niyə real yanaşmırıq? Niyə biz ölkəmizə belə baxırıq ki, hər şeyi kağız üzərində həll etməliyik? Əgər kağız üzərində yazılanla hər bir şeyi həll etsək, onda elə bax, buna söykənən insanların özünün min dəfə səhvini tapıb üzlərinə

deyərəm. Ona görə də mən xahiş edirəm ki, bu qaldırdığım məsələlərlə bağlı konkret olaraq rəsmi açıqlama verilməsə də, mənim özümə bununla bağlı ayrıca məlumatlar verilsin. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Razi müəllim, neçə məktubunuza cavab verilməyib, həmin o məktubların siyahısını verin. Fərid müəllim, günü bu gün həmin o məktublara baxırsınız, yoxlayırsınız. Onların hamısı bizdə qeydiyyatdan keçib. Zəhmət olmasa, onlara baxın, görək hansı məktublardır və nəyə cavab verilməyib. Nazir, nazirliyin işçiləri buradadır. İşçi qaydada bunu danışmaq olar. Bu qanun layihəsinə səs verirsiniz, yoxsa yox?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səs verəcəksiniz. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Hörmətli xanım sədr, hökumət nümayəndələrinin iclasda iştirak etməsini nəzərə alaraq və ikinci oxunuşun tələblərinə uyğun olaraq, fikirlərimi təqdim etməmişdən öncə bir məsələyə də diqqət ayırmaq istərdim. Çünki ötən iclasdan sonra belə fikirlər var ki, büdcə ilə bağlı müzakirələr məhdud dairədə aparılır, təbii, yəni məhdud sayda millət vəkilləri iştirak edir. Amma, təbii ki, bu, tamamilə yanlışdır. Mən bu gün müzakirə etdiyimiz 2024-cü ilin dövlət büdcəsinin ilkin sənəd müzakirəsinə baxdım. Ötən ilin payız sessiyasında 73 deputat çıxış edib. Eyni zamanda, son illər Milli Məclisdə büdcə müzakirələrinin genişlənməsi Azərbaycanın Açıq Büdcə İndeksi Hesabatında yerinin kəskin yaxşılaşmasına gətirib çıxarıb. Orada da xüsusi qeyd olunub ki, məhz Milli Məclis daxil olmaqla hökumətdə büdcə müzakirələrinin daha geniş

aparılması, daha çox “Stakeholder”lərin cəlb edilməsi məhz bizim mövqeyimizə təsir göstərib.

Eyni zamanda, ötən dəfəki iclasda büdcənin birinci oxunuşda səsə qoyulması ilə bağlı təklif biz deputatlardan gəlmişdi. Əslində, bu təklifin səsə qoyulması ilə daha sonra səsvermə həyata keçirilir. Yəni bu, praktik olaraq ondan xəbər verir, əslində, təklif edən biz deputatlar olduq və bu da onunla bağlı idi ki, çıxışlar oxşarlaşırdı. Amma bütün hallarda həm hesabat, həm də rəqəmlər göstərir ki, məhz cənab Prezidentin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq, hörmətli xanım sədr, Sizin sədrliyinizlə Milli Məclisdə büdcə sənədləri daxil olmaqla iqtisadi məsələlərin və digər məsələlərin demokratik müzakirəsi həyata keçirilir. Ona görə mən Sizə təşəkkür edirəm.

Layihə ilə bağlı ikinci oxunuşun tələblərinə uyğun olaraq, bir neçə maddə üzrə fikirlərimi bölüşmək istərdim. Hörmətli Musa müəllimin qeyd etdiyi məqam kifayət qədər vacib məqamdır. Çünki burada sosial şəbəkədə müzakirə edilən məsələlərdən biridir. Mən məsələnin struktur və iqtisadi tərəflərinə toxunmaq istərdim. Çünki sosial şəbəkədə müzakirə edilən məsələlərdən biri də sosial xərclərin sanki azaldılması ilə bağlıdır.

Hörmətli Musa müəllim qeyd etdi, təbii ki, belə bir azalma yoxdur. Bu, nədən qaynaqlanır? Çünki büdcə sənədində sosial müdafiə və sosial təminat xərclərinin 4 milyard 542 milyon manatdan 4 milyard 391 milyon manatadək azaldılması nəzərdə tutulub. Amma bu, sosial xərclərin azalması anlamına gəlmir. Niyə gəlmir? Çünki sosial xərclərə yalnız dövlət büdcəsinin həmin maddəsi aspektindən yanaşmaq doğru deyil. Sosial xərclərə icmal büdcə aspektindən yanaşmaq lazımdır. Çünki sosial xərclərin əhəmiyyətli hissəsi dövlət büdcəsindən kənarda

olan sosial fondlar vasitəsi ilə həyata keçirilir və biz həmin maddənin strukturuna diqqət yetirsək, həmin maddədə 1 milyard 392 milyon manat dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fonduna transferlərdir. Gələcəkdə Dövlət Sosial Müdafiə Fondunun özəl sektordan yığımları nə qədər artacaqsa, o qədər büdcədən transferlərin həcmi azalacaq. Amma bu, heç də o anlama gəlməyəcək ki, dövlət büdcəsinin sosial xərcləri azaldılır. Bunlar, sadəcə, transferlərin azalması və Dövlət Sosial Müdafiə Fondunun öz daxili mənbələrindən daha çox vəsait cəlb etməsi anlamına gəlir. Çünki nəzərə alsaq ki, Dövlət Sosial Müdafiə Fondunun büdcədənkənar mənbələrdən sosial haqlar üzrə yığımları 3 milyard 387 milyon manat proqnozlaşdırılsa da, dürüstləşmədən sonra bu rəqəm 3 milyard 577 milyon manat olacaq. Yəni Dövlət Sosial Müdafiə Fondu büdcə xərclərinə toxunmadan, əlavə 190 milyon manat vəsait cəlb edə biləcək. Bu da, təbii ki, əmək haqlarının proqnozlaşdırılandan daha çox artması ilə bağlıdır və büdcədə həmin 190 milyon manata qənaət ediləcək. Yəni biz, əslində, ümumi sənədə baxsaq, sosial xərclərdə 160 milyon manat azalma deyil, 30 milyon manat artım var. Həmin 30 milyon manat artımın 25 milyon manatı əmək pensiyalarının ödənilməsinə, 5 milyon manatı Dövlət Sosial Müdafiə Fondunun saxlanma xərclərinə yönəldiləcək və gözlənilir ki, onlar sosial proqramlar üçün istifadə olunacaq.

Yəni reallıqda və icmal büdcə aspektindən baxsaq, 160 milyon manat hər hansı bir azalma yoxdur. 30 milyon manat artım var. Ona görə büdcə xərclərində sosial xərclərin azalmasını iddia etmək, təbii ki, nə iqtisadi baxımdan, nə də sosial baxımdan doğru deyil. Bu, yanlış bir yanaşmadır. Əslində, biz dürüstləşmiş büdcədə də

sosial xərclərin artmasını bu gün müzakirə etdiyimiz layihədə təsdiq edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Musa müəllim, mən, ümumiyyətlə, təklif edirəm ki, qeyri-rəsmi dəyirmi masalar da keçirəsiniz. Siz də, Vüqar müəllim də, Tahir müəllim də. Elə öz həmkarlarımızın çox həyəcanlı çıxışları olur, çoxsaylı ittihamlar olur və sair. Xahiş edirəm, istəyirsiniz, fasilə zamanı kabinetlərinizdə bunu keçirə bilərsiniz. Özümüz üçün. Mütləq bunu etmək lazımdır. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, hörmətli hökumət nümayəndələri. İlk növbədə mən də hamını Milli Qurtuluş Günü münasibəti ilə ürəkdən təbrik edirəm. Bu, xalqımızın şanlı bir tarixidir. Bu tarixin ümumi iştirakçısı olaraq, doğrudan da, biz fəxarət hiss edirik ki, məhz elə bugünkü büdcənin müzakirəsi əgər biz baxsaq, bilavasitə qurtuluşa bağlıdır. Yəni qurtuluş olmasaydı, bu gün ölkənin bu cür dövləti, bu cür büdcəsi, bu cür müzakirəsi, bu cür parlamenti ola bilməzdi. Vaxtı ilə Ulu Öndərin gəlməsi, burada həmkarlarımız qeyd etdi.

Büdcə layihəsi ilə bağlı fikirlərimi bildirmək istəyirəm. 2024-cü ilin büdcəsi ilə əlaqədar olan məsələlər dəfələrcə burada qeyd olundu. Hörmətli Samir müəllim də qeyd etdi. Bütün bölgülər tam olaraq Milli Məclisin deputatlarının təqdim etdiyi, yəni arzuladığı formada həyata keçirilir. Bütün deputatlar arzu edirdi ki, işğaldan azad olunan ərazilərin bərpası sürətləndirilsin, vəsait ayrılsın, vəsait ayrılıbdır. Hamı arzu edirdi ki, təhlükəsizlik, müdafiə məsələləri gücləndirilsin, gücləndirilibdir, nəzərdə tutulubdur. Digər sahələrdə, su, nəqliyyat, yol və ölkənin başqa ərazilərində olan sahələri ilə bağlı fikirlər

deputat həmkarlarım tərəfindən qeyd olunurdu. Bu öz əksini tapıbdır. Bu, bir daha onu göstərir, hökumət ilə parlament arasında olan mütəmadi əlaqənin nəticəsidir ki, parlamentdə ilbəil, aybaay hər çıxışda qaldırılan məsələlər hökumətin layihəsində özünün əksini tapır və nəticə ortaya çıxır.

Əfsuslar olsun ki, parlamenti bəzən özünün şəxsi auditoriyası hesab edən və ondan özünün siyasi karyerası üçün istifadə edənlər də az deyil. Mən keçən iclası götürürəm. Həmin iclasda biz müzakirələr apardıq. Hörmətli xanım sədr, ola bilər, ikinci oxunuşdan kənara çıxıram, üzrlü hesab edin. Amma mən gərək öz fikirlərimi çatdıram. Bilirsiniz, Daxili Nizamnamə var, hər bir deputatın təklifi var və hər bir deputat təklif irəli sürə bilər və ən əsası demokratikliyi ondan ibarətdir ki, bu təklif səsə qoyulur və çoxluq tərəfindən qəbul olunur. Həmişə görmüşük ki, azlıq çoxluğa tabe olur, çoxluq azlığa tabe olmur. Biz bunun əksini görürük. İllərlə bizimlə bir yerdə fəaliyyət göstərən insan qapıdan çıxan kimi jurnalistləri çağırıb geniş müsahibələr verir ki, mən bunu deyəcəkdim, onu deyəcəkdim. Ömrü boyu demisən də bunu. Hamı da qulaq asıb. Lazım olan məsələyə də burada cavab verilib. İndi nə deyirsən? İndi burada hörmətli hökumət üzvləri oturub, xahiş edirəm, onlar da bu məsələdə bir məlumat...

Deyir ki: “Qarabağın bərpası üçün sahibkarlardan bəhanə ilə pul yığılıb”. Hansı sahibkardan pul yığılıb? Hörmətli Samir müəllim, hansı sahibkarlardan pul yığılıb? Hörmətli Sahib müəllim oturub, vergilər sahəsindən, hansı sahibkarı bura qoşublar? Qarabağın işinə niyə haram qatırsan? O boyda iş görülür orada. Gecə-gündüz. Cənab Prezident, demək olar ki, iki günün biri oradadır. Mehriban xanım iki günün biri oradadır. Tikinti-quruculuq

işləri aparılır, qurulur, yaradılır ki, insanlar köçsün. 30 ildir bu insan çadır altında qalır, vaqonda qalır, orada meyidini basdırıb. Bir qardaşını İmişlidə, bir qardaşını Əzizbəyovda basdırıb.

Bizim 30 illik arzumuz nə idi? Qarabağımız qayıtsın və əhalimiz köçsün getsin, orada yaşasın. Bu işlərə son qoyulsun. Deyirdik, nəyimiz var hər birimiz verərik. İndi nə oldu? 3-5 sahibkarın öyrətməsi ilə gəlib dövlətin büdcəsinin yönümünü dəyişmək istəyirsən? Yaxud "Qarabağ adı altında sosial təminata ayrılan vəsaitdən, sosial təminatdan kəsilir" deyirsən. Harada kəsilib? İndi Musa müəllim burada fikirlərində qeyd etdi. Axı, bu cür ədalətsiz fikirləri danışan təcrübəsiz adam olsa, başa düşərəm ki, bəlkə təcrübəsi çatmır, yolda kim isə öyrədir. Amma təcrübəsi olan adamlar bu cür məsələləri bu cür formada qaldırmazlar.

Bizim hər birimizin borcumuzdur, bu gün çalışmalıyıq ki, o boş qalan ərazilər dolsun, orada əkin-biçin başlasın və bir də Azərbaycan Bayrağı orada aşağı enməsin. Dövlətimiz orada möhkəmlənsin, biz siyasətimizi buna yönəltmişik. Bəzən elə çıxır, guya ki, indi Milli Qurtuluş Günü ərəfəsində dağılan dövləti, anarxiyanı yaradanların əlindən qurtarıb, qurtuluş yaradanlar bu xalqı istəmir, bu xalqı didərgin salanlar, Surətin qabağında qoyub qaçanlar, Kələkidə gedib dəstəsi ilə bir yerdə, prezidentli, bütün aparatı ilə bir yerdə soğan əkənlər, onlar bizdən daha çox xalqı istəyir və bu millətə xidmət göstərir.

Bu milləti xilas edən Heydər Əliyevdir, Ümummilli Lider. Bu gün bu milləti irəli aparan, bu millətin "Dəmir yumruğ"u İlham Əliyevdir, cənab Prezidentdir. Bu işləri həyata keçirir, görür. Buna da, xahiş edirəm, xələl gətirməyək. Kimin nə arzusu, istəyi varsa, siyasi reklamını

qurmaq istəyirsə, gələcək seçkiyə hazırlaşırsa, getsin yolunu başqa tərəfdən salsın, Qarabağdan salmasın. Qarabağın üstündə çox alverlər olub. Artıq Qarabağın üstündə alver olmaz. Bu məsələ bitdi, bu məsələnin nöqtəsi qoyuldu. Üzr istəyirəm, əgər kənara çıxdımsa, üzrlü hesab edin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Siyavuş müəllim, qanun layihəsinə səs verəcəksiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bir də mən xahiş edirəm, heç kim çıxışında şəxsi məsələlərə toxunmasın. İclaslarda personalar haqqında danışmaq olmaz. Zahid Oruc. Buyurun, Zahid müəllim.

**Z.Oruc**. Təşəkkür edirəm. Hörməti sədr, hörmətli hökumət və Məclis üzvləri. "Büdcə sistemi haqqında" Qanunda bu "dürüstləşdirmə" termini var. Bizim hamımız o iqtisadi, maliyyə terminindən yararlanırıq. Ancaq mahiyyətcə həm gəlirlər, həm də xərclərlə bağlı artıq ilin birinci yarımilliyinin sonunda bu addımların atılmasını hər birimiz təqdir edirik. Məncə, bu məsələyə siyasi mövqedən yanaşılması da qeyri-mümkündür. Çünki hamı alqışlayır ki, büdcə artır, xərclər artır və qarşıya qoyulmuş hədəflər var.

Hörmətli Vüqar müəllim – Hesablama Palatasının rəhbəri ötən dəfə yaxşı bir statistikanı təqdim etdi ki, bizim müstəqillik tariximizdə 13 dəfə belə addım atılıb. Bu özü təqdir olunan hadisədir ki, Azərbaycanda gəlirlər artdığı üçün ilin ortasında biz büdcəyə yenidən baxmışıq. Bir sıra xarici ölkələrin nümunələrini deyə bilərdik ki, həqiqətən də, o iqtisadi böhranlar yaşanan coğrafiyalarda ən azı məlum savaşlar fonundakı iqtisadi ticarət əlaqələri dövriyyəsi darmadağın edilib. Bu fonda o ölkələr öz büdcə xərclərini də azaldırlar.

Mənim toxunmaq istədiyim məsələ 2-3 istiqamətdədir. Burada 3,7 milyardlıq əlavə maliyyə tələbatının yarandığı mənbələr konkret göstərilib. Qeyri-neft gəlirləri 1,3 milyard manat, əlavə neft gəlirləri 605 milyon manat və sair. Bu, ardıcıllıqla qeyd olunur. O cümlədən bilavasitə xərclərin optimallaşdırılması və sair ilə bağlı məsələlərə geniş yer verilibdir. Əlbəttə ki, burada ağırlıqlı olaraq Qarabağın bərpasının qoyulması, 10 illər də bu, belə olacaq və mahiyyətcə ona görə də büdcə qayıdış büdcəsidir, təhlükəsiz büdcəsidir. Köçkünlərin vaxtı ilə bu qəsəbələrdə yerləşdirilməsi əgər gəlir gətirəcək bir hadisə deyildisə, indi Qarabağa qoyulan o vəsaitlər qarşıdakı dövrdə yalnız bir itki kimi görünməyəcək. Əminəm ki, onların hər biri də büdcədə əlavə gəlirlər yaradacaq. Amma bizim bu fonda diqqətə gətirmək istədiyimiz məsələ, xüsusi ilə də bu 4 kəndin, Qarabağ və azad torpaqlarımızdan 250-300 kilometr kənarda, Qazax ərazisində o kəndlər sabah necə bərpa olunacaq? Bu fonda bütün sərhəd kəndlərinə dair hökumətin, dövlətin ayrıca proqramını arzu edirik, xahiş edirik. Çünki sərhədi yalnız sərhəd qüvvələri və ordu qoruya bilməz. Silahlı qüvvələr kürəyinin arxasında insanları görmək istəyir. Onlar tam əmin olmaq istəyir ki, təsərrüfat həyatını quran o insanlar o kəndlərdə məskunlaşıblar. Bilirsiniz, indi bu 4 kəndlə bağlı orada ermənilər işğal dövründə necə məskunlaşmışdılar, bəyan edirlər ki, delimitasiya xətti bəzilərinin evinin ortasından keçib. Biz çox arzulayırıq ki, bax, bu artımlarda və yaxud proqramlarda bütün sərhəd əraziləri, Gədəbəydən Naxçıvana qədər hamısında yeni məskunlaşdırma proqramına dair bəndlər olsun – bu da bir qayıdışdır. İndi istəyirsiniz, bunun adını Böyük Qayıdış qoyaq, Böyük Qayıdışın bir parçası qoyaq – buna ehtiyac var.

Bunu demək istəyirəm.

İkinci, burada mədəniyyət, incəsənət xərcləri, 574 milyon manatdan bəhs olunur. Paralel olaraq 3 gün əvvəl bütün media orqanlarımızda bir məlumat, əminəm ki, hamının, o cümlədən dövlət, hökumət orqanlarının da diqqətinə çatmalı idi.

Mən "Azərbaycanfilm" kinostudiyasının bir nümayəndəsinin dili ilə danışıram, sitatı olduğu kimi söyləyirəm. Deyir ki, "direktor Nazim Hüseynov, müavin Aydın Hüseynov işdən çıxıblar. 1276 nəfərlik idarə bu gün fəaliyyətsiz qalıb. O boyda binanın taleyinə baxın da. "Azərbaycanfilm" ölüm yatağındadır. Bunun sonu necə olacaq? Bizim kimi sənət adamları ortalıqda qalıb. Onları qınamıram, nə qədər işsiz qalmaq olar".

Bilirsiniz, biz ötən 10 illər ərzində hər zaman qeyd edirdik ki, 44 günlük savaşa qədər biz bütün diplomatiyaların, ilk növbədə mədəniyyətin gücü, silahı ilə bütün beynəlxalq məkanda özümüzə mövqe formalaşdırırıq, həm də sonda silahlı savaşa atılmışıq.

Biz qardaş ölkənin Ərdoğanın liderliyində yumşaq güc siyasətindən, mədəniyyət silahından necə faydalandığını bəyan edirik. "Diriliş Ərtoğrul"dan "Möhtəşəm Yüz il"ə qədər hamısı bizim seyirçilərin də, insanlarımızın da, xalqımızın da izlədiyi böyük əsərlərdir. Bütün ərəb dünyasını, islam dünyasını o əsərlər fəth edir. Biz yalnız Hollivudun məlum siyasətinin təsiri altında deyilik. Bizim artıq alternativlərimiz var.

İndi bu məsələyə, məhz problemə mütləq dövlət başçısı reaksiya verməlidir? Məncə, axı, hökumət bunu görür. Müvafiq nazirlik bu məsələnin xilası üçün addımlar ata bilər. Ona görə də mən düşünürəm ki, bu müzakirələr zamanı bizim səsləndirdiyimiz məsələlər var. Açıq desəm,

mən Samir müəllimi bir qədər indi ikinci işimizdən dolayı daha yaxından tanımaq imkanı əldə etmişəm, o insanı professional hesab edirəm, hər zaman da burada olan bütün parlament üzvlərinin, hətta bəzən tam əsaslandırılmamış mövqelərinə də etika ilə, böyük dəyərlə cavablar verib, amma bu kinostudiyanı xilas etməsək, sabah Vətən müharibəsində qələbəmiz haqqında filmləri Hollivuddan, ondan-bundan istəməli olacağıq. Məni tanıyanlar bilirlər ki, mən bu mikrofonu süni trafaret, şəxsi özəl sözlərə yönəltməmişəm. Ona görə də bu artımlar cənab Prezidentin bu salonda andiçmə mərasimində “bizə hücumlar güclənəcək” sözündən çıxış etməliyik.

Təhlükəsizlik, sadəcə, əsgərin səngərdə qoruduğu hadisə deyil. Hər birimiz bu gün bütün beynəlxalq məkanda əsgərik. Ona görə də, mən düşünürəm, bax, bu kinostudiyanın xilası da bizim bu artımlarda özünü bir formada göstərməlidir ki, bunlar çalışsınlar, əsərlər yaratsınlar, bizi beynəlxalq məkana çıxarsınlar.

Sənədə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın müəllim, sualınız var, deyəsən? Buyurun.

**A.Hüseynov.** Siz çox düzgün qeyd etdiniz ki, bu Dövlət Sosial Müdafiə Fondunun xərclərindəki dəyişikliklə bağlı ictimaiyyətə geniş məlumat verilsin. Ancaq mən belə başa düşürəm ki, bu, sırf texniki bir məsələdir. Nə mənada?

Əslində, biz Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün büdcəsini təsdiq etmişik – 6 milyard 919 milyon manat. İndi isə 30 milyon artıb, 6 milyard 949 milyon olub. Bu 160 milyon manat isə dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fondunun xərclərinin balanslaşdırılması üçün ayrılan vəsaitdir. Əslində, Dövlət Sosial Müdafiə

Fondunun öz gəlirləri artıb və dövlət büdcəsindən transfer azalıb. Bu, texniki bir məqamdır, yəni gəlirlərin mənbələrinin müəyyənləşdirilməsi üçündür. Əsasən, belə deyək ki, ictimaiyyəti xərclərin məbləği maraqlandırır. Xərclərdə də artım var. Ona görə mən hesab edirəm ki...

**Sədrlik edən.** Təklif edirsiniz ki, müzakirələri təxirə salaq?

**A.Hüseynov.** Yəni demək istəyirəm, Dövlət Sosial Müdafiə Fondunun xərcləri...

**Sədrlik edən.** Aydın müəllim, o, məlumdur. Musa müəllim çox ətraflı məlumat verdi. Ancaq deputatlar yazılıb. İndi Naqif müəllim ortada dedi ki, 5 dəqiqəyə keçək. Ancaq cəmi 7 nəfər yazılıb. 7 nəfərin çıxışını mən 5 dəqiqəyə keçirməyə...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Aydın müəllim, mən başa düşmədim, Siz ya məni başa düşmürsünüz, ya da qulaq asmırsınız.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən Sizə söz verməmişdim axı. Xahiş edirəm, mənə qulaq asın. Deputatlar yazılıblar. Mən onlara söz verirəm. Texniki məsələdir, nə məsələdir, komitənin sədri çox ətraflı məlumat verdi. Mən də öz təkliflərimi dedim. Burada səslənən çıxışlara Siz diqqətlə qulaq asırdınızsa, başa düşərdiniz. Hələ bizim özümüz, bəziləri də məsələni düzgün şərh etmir. Yenə də yazacaqlar ki, xanım sədr belə dedi. Bizim özümüzə dəyirmi masa lazımdır ki, başa düşsünlər, nə nədir.

Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, hörmətli hökumət nümayəndələri. İkinci oxunuşun tələbinə müvafiq olaraq, layihənin 3-cü maddəsi ilə bağlı qısa bir məqama toxunmaq istəyirəm. Az öncə

də qeyd olundu, bu gün psevdo iqtisadçılar, məhz bu müddəanın yanlış təfsiri ilə sosial xərclərin azalmasına diqqət çəkir ki, bu da çox savadsız, səbatsız yanaşmadır. Bəli, həmin maddə üzrə 150 milyon civarında rəqəm fərqi var, amma bu, ümumi sosial xərclərdə azalma deyil, büdcə strukturunun xarakterindən irəli gələn bir tendensiyadır.

Çox hörmətli həmkarlarımız şərh verdilər. Orta ixtisas iqtisadi təhsili olan kollec tələbəsi də yaxşı başa düşür ki, sosial istiqamətdə aidiyyəti tədbirlər daha çox icmal büdcəsi hesabına reallaşır. İndiki halda DSMF-nin yığımları imkan verir ki, dövlət büdcəsi əlavə yüklənməsin, bütün nəzərdə tutulmuş sosial paket tam icra olunsun. Bu mənada vətəndaşlardan, mediadan, bu ali tribunadan bir daha xahiş edirik ki, dürüstləşdirilmiş büdcə ilə bağlı təsəvvürlərini prosesdən anlayışı olmayan, karyerasını sosial problemlər üzərində quran bədxah kəsimin şərhləri əsasında formalaşdırmasınlar.

Bu dürüstləşdirmə, əslində, Azərbaycan dövlət büdcəsinin, Azərbaycan dövlətinin güc və qüdrətinin inikasıdır və birmənalı şəkildə konstitusion niyyət və məqsədlərin, o cümlədən sosial rifahın yüksəlməsinə xidmət edir.

Hörmətli sədr, mən hökumət üzvlərinin iclasda iştirak etməsindən istifadə edib, bir məsələ üzrə təşəkkürümü çatdırmaq istəyirəm. Bildiyiniz kimi, bir neçə gün öncə Bakı Enerji Həftəsi çərçivədə Biləsuvar Günəş Elektrik Stansiyasının təməli qoyuldu. Bu, elə bir layihədir ki, strateji əhəmiyyəti, təbii, aydındır. Bununla yanaşı, ən primitivindən baxsaq, tikinti prosesində 2500-ə yaxın insan yaxşı gəlirli işlə təmin olunacaq, dövriyyəmiz canlanacaq. Yəni möhtərəm Prezident bu layihə ilə Biləsuvara, sözün əsl mənasında, ikinci nəfəs verdi.

Həmin ərazi şoran torpaqlardır, açığı, heç otlaq üçün də

yaramırdı. Amma cənab İlham Əliyev bu gün məhz həmin heç bir iqtisadi səmərə verməyən şoran torpaqları Biləsuvarın dolanışıq mənbəyinə çevirdi. Rayonumuz artıq ölkə əhəmiyyətli strateji zonalardan biri kimi çıxış edir. Bir zamanlar özü elektrik enerjisinə həsrət qalan Biləsuvar artıq enerji istehsalçısı olacaq. Bu, rayonumuza göstərilən böyük qayğıdır. Elə hökumət nümayəndələrinin iştirak etdiyi iclasda bu ali kürsüdən möhtərəm Prezidentə özümün və seçicilərim adından minnətdarlıq edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Tahir müəllim, buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, qonaqlar. Mən də qarşıdan gələn bayramlar münasibəti ilə sizi, xalqımızı təbrik edirəm.

Büdcə layihələrinin hər birinə əsas kimi səs vermişəm və yekunda da səs verəcəyəm. Amma bu bayramlar münasibəti ilə bir məsələyə düzəliş etməyi özümə vəzifə borcu hesab edirəm. Şübhəsiz, yenə də danışacağam.

Ulu Öndər xalq hərəkatını, milli azadlıq hərəkatını 100 faiz müdafiə edib. Mən xahiş edirəm ki, milli azadlıq hərəkatı və xalq hərəkatı ilə hakimiyyəti qarışdırmayın.

Mənə dəfələrcə qismət olub, gənc insan kimi bu parlamentdə mərhum Heydər Əliyevlə söhbət etmişəm, ondan dövlətçilik öyrənmişəm. O, istiqlala səs verən birinci şəxs olub. O 43 nəfərin içərisində birinci olub və ona görə çoxları da səs verib. Hətta mən mitinqdə o zaman çıxış etmişəm ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalq hərəkatını müdafiə edir. Ona görə də ünvanı düzgün seçmək lazımdır.

Bəli, hakimiyyətdə çox ciddi səhvlər olub. Sonradan da, içi mən qarışıq, səhvlər olub. Biz bunu etiraf da etmişik,

etiraf da edəcəyik. Çünki biz dövlətin nə olduğunu hələ yaxşı anlamırdıq. Bax, burada, – keçmiş deputatlar Allah şahididir, – çıxış etdim ki, sizin qarşınızda diz çökürəm, Şuşa, Laçın gedəcək, prezident seçkiləri keçirməyin. Əgər hərəkatda iştirak edən xalq Heydər Əliyevi istəmirdisə, onu niyə dəvət edirdi, niyə onu sevirdi. Nə üçün biz Heydər Əliyevin rəhbərliyi ilə o dövlət şurasını yaratmaq istəyirdik?

Bizim hakimiyyətimizin ciddi səhvləri olub. O, hakimiyyəti ciddi tənqid edib, biz də edək. Özüm də etikadankənar demək istəmirəm. Mən xahiş edirəm ki, camaatı soyutmayaq. Çünki o insanlar Heydər Əliyevi sevib, indi də sevirlər. O sevgini əllərindən də almayacaqlar. Amma bəzi çıxışlar səhvdir, hakimiyyətə yönələn qəzəbi başqa yönə yönəldir. Mənə bir nümunə göstərin ki, mərhum Heydər Əliyev və indiki Prezidentimiz milli hərəkatın, xalq hərəkatının ünvanına bir kəlmə pis söz deyib? Hakimiyyətin ünvanına deyib, xalq hərəkatının deyil.

Bax, burada Elman müəllim əyləşib, biz nə qədər əllərimizlə Qarabağa xalq hərəkatından döyüşçülər göndərmişik, şəhid olublar, yaralanıblar, doğranıblar, kəsiliblər. Ona görə də mən istəyirəm, bu sahədə fikrim aydın olsun.

İkincisi, büdcə müzakirələri olur, hökumətin hesabatları olur. Biz məsələ qaldırırıq. Onsuz da qəbul edənlər yoxdur. Misal deyək ki, Ağsu rayonunda zəlzələdən sonra 450 ədəd aktlaşdırılmış ev təmirini gözləyir. Cənab Baş nazirə də o vaxt yaxınlaşıb demişəm. Cənab Şərifova da demişəm. Yoxdur. Yaxud Ağsu dolayları. Ümumiyyətlə, indi bizə camaatın qəzəbi ona görədir ki, niyə danışırsınız, onsuz da sizin təklifiniz qəbul olunmayacaq. Mən illər üzrə onlarca təklif vermişəm. Desinlər, biri həll olunubmu?

Amma indi bir təklif etmək istəyirəm. Axı, mənim nə

qərəzim ola bilər? Xahiş edirəm, o, qəbul olunsun. Mənim təklifim ondan ibarətdir ki, bu gün qazi intiharları bizi çox narahat edir. Dövlətimiz şəhid ailələrinə, qazilərə, veteranlara kifayət qədər qayğı göstərir. Adamın başı üstündə Allah var, bunu danmaq olmaz. Amma bu, kifayət deyil. Bəzən qazilər özlərini yiyəsiz hesab edirlər. İçində bir neçə faiz pisləri də var, onu demirəm. Amma onlar özlərini yiyəsiz hesab etməsinlər.

Bir sıra xarici dövlətlərdə şəhid ailələri, qazilər, veteranlarla bağlı xüsusi qurumlar var. Onlar məşğul olur. Onların hər birinin fərdi, ailə, milli problemlərini ümumiləşdirirlər, qoyurlar. Mən təklif edirəm ki, biz də publik hüquqi şəxs təsis edək. Komitəmi, ya nə isə yaradaq və onlar orada birbaşa məşğul olsunlar. Həm də indi hər hansı bir obyekt, müəssisə yaradan, iş götürən adamlar müəyyən faiz onun fonduna pul köçürsün. Köçürsün ki, qazilərin hər birinin, şəhid ailələrinin problemlərini dəqiq həll edək.

O vaxt biz dedik. Ümumiyyətlə, mən dükanların ləğvi ilə bağlı narazılıq etdim. 600 nəfər qazinin dükanı bağlandı. 600 ailə çörəksiz qaldı. Yaxud, qazi gedir bir dənə balaca iş tapır, dərhal onun pensiyasını kəsirlər. Bəs necə dolansın? Axı, saxlaya bilmir. Yaxud deyək ki, – xahiş edirəm, bu məsələyə baxaq, keçən dəfə də dedim, – dizdən yarım santimetr aşağıdırsa, II qrup vermək olmaz, III qrup verilir. Kişi şikəstdir e! Buna düzəliş edin, II qrup verin də. Yaxud bir əli, ayağı şikəstdir, ona maşın veririk. Biri gözdən şikəstdir, kontuziya olub, ona isə heç bir şey vermirik. Heç olmasa, onun əvəzinə mebel dəsti alaq, mənzil və digər məsələlər. Yəni problemlər çoxdur, mən demək istəmirəm.

Bizim qonşu ölkələrdən birində, hətta kənd səviyyə-

sində belə kimsə bir iş qurursa, gedib o kənddə qazi, şəhid ailəsi varsa, onu özünə ortaq edir. Bizim nə qədər imkanlı vətəndaşlarımız var, sahibkarlarımız var. Hesab edirəm ki, onlar publik hüquqi şəxs olan o quruma kifayət qədər pul köçürə bilərlər və dövlətimizə də yük düşməz. Mən belə hesab edirəm ki, bu, çox yaxşı nəticə verə bilər.

Biz 44 günlük müharibədə 3 min şəhid verdik. Nə qədər də yenidən qazimiz, veteranımız yarandı. Qanunla bizim onlara ayrılan vəsaitimiz çoxalmalı idi. Yəni 3 min ailə, üstəgəl digərləri. Çoxaldımı? Yox. Bunu nəzərə almaq lazımdır ki, əhatə etsin, azalmasın. Yəni onlar bizim baş tacımızdır. Biz özümüzü göstərmək üçün demirik ki, bunları. Onlar bizim balalarımızdır. Mənim nəslimdə 3 şəhid, 1 qazim var. Mən onların problemlərini özüm bilirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Tahir müəllim, sağ olun. Ancaq mən Sizə xatırladım. "YAŞAT" Fondu haqqında bilirsiniz, təbii ki. Fond var və bu fond nə qədər iş görür. "YAŞAT" Fondu nə qədər iş görür. İndi qaziləri deyirsiniz. Bizim Milli Məclisdə 4 nəfər qazini işə götürmüşük və burada işləyirlər. İkisi Aparatda, ikisi İşlər İdarəsində. Mən xahiş edirəm, Siz onlarla bir görüşün, bir çay için. Onlar Şuşanı alan uşaqlardırlar. Onlar bir dəfə Milli Məclisə gəldilər. Onların sənədləri ilə problemləri var idi. Mən onları işə götürdüm. Şəhid anası bizdə işləyir. Qaziləri çağırın, bir onlarla danışın, görün onlara nələr olunur. İndi mən bilirəm, başa düşürəm ki, kiməsə bəlkə olunmur, kimsə bəlkə diqqətdən kənarda qalıb. Ona da inanmıram. Ancaq bunu belə ümumiləşdirmək olmaz. Xüsusi ilə biz bu qanunu qəbul edirik.

Fəzail Ağamalı. Fəzail müəllim, xahiş edirəm, buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr,

hörmətli həmkarlar. Burada səsləndirilən bəzi fikirlərə münasibət bildirməmək olmazdı, mən deyərdim ki, həm də ədalətsizlik kimi qiymətləndirilərdi.

Mən 1996-cı ildən bu günə qədər Milli Məclisdəyəm. Vaxt var idi ki, biz büdcəni müzakirə edəndə əlimizdə 10 səhifəlik bir sənəd var idi, 1997-ci, 1998-ci ildə. Bu gün büdcənin toplumu 4 cilddən ibarətdir. Bu gün Azərbaycanda haqlı olaraq söyləyirlər ki, Azərbaycan büdcəsi sosialyönümlü büdcədir. Bu, kifayət qədər arqumentlərlə, faktlarla ortalığa gətirilir, sübut edirlər. Sizin dediyiniz kimi, bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən "YAŞAT" Fondu, DOST Agentliyi ölkə Prezidentinin sosial siyasətini olduqca uğurla, dəqiq və vicdanla yerinə yetirməkdədir.

Ayrı-ayrı epizodları ümumiləşdirərək burada bəlağətli çıxış edib, sosial məsələləri əldə bayraq edib ayrı-ayrı saytlarda qəhrəmana çevrilməyin millət vəkilinin daşıdığı statusla heç bir uyğunluğu yoxdur. Biz hər bir sözümüzün məsuliyyətini anlamalıyıq, başa düşməliyik. Dəyərli həmkarlarımız, dediyimiz sözün hər biri təkcə Azərbaycan cəmiyyətində deyil, onun rezonansı həm də ölkə xaricində də özünü göstərir, ifadə edir.

İllərdən bəri Ulu Öndərimizin qurduğu dövlətin vermiş olduğu konkret nəticələri biz büdcənin sənədlərində və şəxsi həyatımızda görməkdəyik.

Büdcənin formalaşmasında, heç şübhəsiz ki, hökumətimizin bütün strukturları onların qarşısına qoyulan vəzifələri, bütövlükdə, uğurla yerinə yetirirlər. Ayrı-ayrı deputatları mən istisna edirəm. Bu gün büdcə ətrafında gedən müzakirələrdə heç kim deyə bilməz ki, burada millət vəkillərinin qaldırmış olduğu bu və ya digər məsələlərə büdcəni təqdim edənlər tərəfindən biganə münasibət

bəslənir, ona diqqət yetirilmir və sair. Belə bir praktika yoxdur. Həm hökumətin hesabatında, həm də büdcənin müzakirəsində biz Maliyyə Nazirliyinin yüksək peşəkarlığının hər zaman şahidi olmuşuq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin də vaxtı ilə bəzi fəaliyyəti haqqında mənim tənqidi fikirlərim olub. Lakin bu tənqidi fikirlər, bütövlükdə, ümumiləşdirilib, onun kifayət qədər əhəmiyyətli, ciddi vətəndaş mövqeyi ilə fəaliyyətinin üzərinə kölgə salmalı deyil. Bu, bütövlükdə, ölkə Prezidentinin sosial siyasətinə qərəzdir, atılan böhtandır. Ona yol vermək olmaz.

Ona görə də mən düşünürəm ki, "büdcənin səmərəlilik dərəcəsi aşağıdır" kimi fikri söyləmək çox ədalətsiz bir yanaşmadır. Mən bu cür fikirləri bir millət vəkili kimi qətiyyən rədd edirəm və bu gün təqdim edilmiş olan dəqiqləşmələr Azərbaycanın reallığına söykənən və Azərbaycanın qarşıya qoyduğu hədəflərə çatmağa imkan verən dəqiqləşmələrdir. Hörmətli həmkarımız Musa Quliyev də bunun ətrafında kifayət qədər açıq, başa düşülən dildə, arqumentlərlə izahını verdi və hörmətli xanım sədr, mən Sizin də replikanızı tamamilə qəbul edirəm. Musa müəllim də müraciət etsin, kim bu müzakirədə onu qəbul edə bilmirsə, hansısa formada dəyirmi masalar keçirilsin, o dəyirmi masalardan sonra hər şey aydın olsun və Milli Məclis kimi məsuliyyətli bir tribunadan məsuliyyətsiz çıxışlar olmasın. Mən bunları demək istəyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, sözünüz var, söz istəyirsiniz? Buyurun.

**T.Mirkişili**. Sağ olun. Hörmətli xanım sədr, burada bir cümlə səsləndi ki, müharibə başlayandan sonra bu qədər şəhidlərimiz olsa da, amma büdcə xərclərində artım olmayıb. Bununla bağlı mən münasibət bildirmək və

xatırlatmaq istəyərdim ki, 2019-cu ildə, yəni müharibə başlamamışdan öncə Azərbaycan dövlət büdcəsinin sosial-yönümlü xərcləri 5,2 milyard manat olub. 2023-cü ildə 13 milyard manat, 2024-cü ildə isə, – biz artıq müzakirə edirik, – 15,7 milyard manatdır. Biz müharibə başlayandan sonra ümumi sosial xərcləri büdcə istiqamətində 3 dəfə artırmışıq. Ona görə həmkarlarımdan xahiş edirəm ki, bu cür çıxışlar edən zaman ya konkret rəqəmlərə əsaslansınlar, ya da əgər məlumatı yoxdursa, bizə müraciət etsinlər, biz daha ətraflı arayış verə bilərik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ancaq bu məlumatlar elə müharibədən sonra hər büdcə müzakirəsində də səslənirdi. Müxtəlif variasiyalarla, ancaq mütləq bunlar hamısı var idi. Çox sağ olun, mən təşəkkür edirəm.

Hörmətli həmkarlar, indi isə çıxış etmək üçün mən sözü əmək və əhalinin sosial müdafiəsi naziri hörmətli Sahil Babayevə vermək istəyirəm. Sahil müəllim, buyurun.

**S.Babayev,** *Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Təşəkkür edirəm, xanım sədr. Mən bütün millət vəkillərinə dəyərli fikirlərinə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Layihə ilə bağlı qısa şəkildə bildirim ki, Musa müəllimin də, bir çox hörmətli deputatlarımızın da qeyd etdiyi kimi, sosial xərclərin hər hansı bir azalmasından söhbət getmir, əksinə az məbləğ də olsa, dürüstləşmə dövründə artım nəzərdə tutulur. Amma nəzərə alsaq ki, biz artıq 2024-cü il büdcəsində 2023-cü il büdcəsi ilə müqayisədə kifayət qədər ciddi, 600 milyon manata yaxın artımı da nəzərdə tutmuşduq, yəni bu gün əlavə bir artım aparılır. Sadəcə, bu vəsaitlərin maliyyələşmə mənbəyinin yer dəyişikliyi baş verir. Hər hansı bir azalma yoxdur.

İkinci olaraq, Azərbaycan dövlətinin başçısının rəhbər-

liyi altında və onun təşəbbüsü ilə həyata keçirilən sosial-yönümlü siyasətin bariz nümunələri barədə danışmaq istəyirəm. Əlbəttə, bu rəqəmlər dəfələrcə səsləndirilib. İcmal rəqəm olaraq, bildirim ki, son 5 il ərzində həyata keçirilən 4 köklü sosial islahat paketi mövcuddur. Bu paketlər çərçivəsində 4 milyon vətəndaşımıza illik əlavə 7 milyard manat vəsait ayrılıb. Yəni hər halda, dövlət tərəfindən sosialyönümlü siyasəti, həyata keçirilən bu silsilə tədbirləri görməmək mümkün deyil. Qısa bir dönəm ərzində Azərbaycanda minimum əmək haqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə, orta pensiya 2,4 dəfə, ən həssas kateqoriyaya ödənilən müavinətlər və bayaq qeyd olunan şəhid ailələri, müharibə əlilləri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdləri məbləğ olaraq 5 dəfə artırılıbdır. Əgər bu rəqəm 2019-cu ildə 400 milyon manat ətrafında idisə, ancaq bu gün bu kateqoriyadan olan insanlarımıza sosial müavinət və təqaüd olaraq 1,9 milyard manat ödəniş edirik. Mən düşünürəm ki, Azərbaycan dövlətinin xüsusi ilə postmüharibə dövründə şəhid ailələri, müharibə əlilləri üçün yaratdığı çox geniş müdafiə, dəstək mexanizmləri də bəllidir. Bu dövr ərzində 122 min şəxsimizə  sosial ödənişlər təyin olunubdur. Ən azı 25-27 min müharibə əlilini, şəhid ailəsi üzvünü, müharibə veteranlarımızı özünüməşğulluq proqramı və digər proqramlar çərçivəsində işlə təmin etmişik, 30 mindən çox müxtəlif reabilitasiya xidmətləri göstərilibdir.

Mənzil təminatı üzrə. Bu günə şəhid ailəsi və müharibə əlillərinə 15 minədək mənzil təqdim edilibdir və son 5 ildə təqdim olunan mənzillərin sayı 9200-dən artıqdır. Yəni şəhid ailələri, müharibə əlilləri xüsusi prioritetdədir, hər zaman diqqət mərkəzindədir və Azərbaycan hökuməti tərəfindən onlarla bağlı silsilə tədbirlər icra olunur.

Müraciətlərlə bağlı qeyd olundu. Mən bildirim ki, Milli Məclisdən 2023-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 5418 məktub daxil olub. Hər biri cavablandırılıb, bir dənə də cavablandırılmamış məktub yoxdur. 2024-cü ildə 1990 məktub daxil olub, yenə də icra müddəti bitən hər bir məktub cavablandırılıbdır. Ola bilər ki, son 3-4 gündə daxil olan məktub var, onların icra müddəti var.

Razi müəllim öz müraciətləri ilə bağlı bildirdi. İstəyərdim ki, mən o rəqəmi də bildirim. 2023-cü ildə Razi müəllimin 86 məktubu, 2024-cü ildə 31 məktubu daxil olubdur. Hər biri cavablandırılıb, bir dənə cavablandırılmayan məktub yoxdur. Sosial Xidmətlər Agentliyinin adını çəkdi, 7 məktub ünvanlayıbdır. 7-si də cavablandırılıbdır. Ona görə, xahiş edirəm, dəqiqləşdirilməmiş məlumatları fərqli formatda təqdim etməyək.

Ev növbəliliyi ilə bağlı. Qeyd etdiyim kimi, bu gün biz 15 min şəhid ailəsinə, müharibə əlilimizə evlər təqdim etmişik. Növbədə təqribən 4600 nəfərimiz qalıbdır. Onlara da ev təqdim olunacaq. Amma təklif edildiyi kimi, kiminsə növbəsini pozaraq, kimə isə qeyri-qanuni olaraq ev təqdim edilməsi qeyri-mümkündür. Biz hansı şəhid ailəsinə deyə bilərik ki, sənin növbəni pozuruq və evi sənə vermirik, başqa adama veririk. Hər biri bizim üçün dəyərlidir və qanunvericiliyin müəyyən etdiyi qaydada növbəli şəkildə hər birinə mənzil verilir və növbəlilik siyahısında da hər hansı bir şəxsdə sual yaranmaması üçün biz "e-sosial" portalında və nazirliyin müvafiq sosial, deməli, internet səhifələrində yerləşdirmişik. Hər kəs daxil olub, tanış ola bilər.

Ünvanlı sosial yardımla bağlı məsələ qaldırıldı. Rəqəm olaraq, bildirim ki, bu gün ölkə üzrə 300 mindən çox

vətəndaşımıza ünvanlı sosial yardım təqdim olunur. Ünvanlı sosial yardımın bu gün orta məbləği 470 manata çatıbdır. Cəmi 4 il, 5 il əvvəllə müqayisədə bu, 2 dəfədən çox bir artımdır. Eyni zamanda, ünvanlı sosial yardıma bu gün dövlət büdcəsindən təqribən 400 milyon manat vəsait ayrılır. Yəni bu sosial əhatəlilik dairəsinin genişləndirilməsi üçün silsilə tədbirlər də görülübdür. Əgər qanunda məhdudiyyət varsa, qanundankənar ödəniş edilməsi ilə bağlı təklif hər halda hökumət nümayəndələrinə verilməli deyil. Əgər qanunvericilikdə müəyyən edilən məhdudiyyətlər varsa, o məhdudiyyətlərin hər birinin vaxtı ilə işıqlandırılması olub və o qanun Milli Məclisdə qəbul edilibdir və qanunla bağlı hər hansı təkliflər var ki, o təkliflər müzakirə edilə bilər. Amma yenə də istənilən təklifin gətirəcəyi maliyyə yükünün də mənbələri müzakirə edilməlidir.

İctimaiyyətin məlumatlandırılması ilə bağlı, xanım sədr, Sizin təklifinizə tam şəkildə qoşuluram, böyük məmnuniyyətlə bu müzakirələrdə iştirak etməyə davam edəcəyimizi bildirirəm. Bizim bu gün gündəlik orta hesabla 30-a yaxın press-reliz, video, poster və sosial şəbəkə paylaşımlarımız olur. Hər gün bizim DOST TV-də sosial sahəyə həsr olunmuş müxtəlif müzakirələr keçirilir. Əlavə olaraq da həftənin 4 günü müxtəlif istiqamətlər üzrə vətəndaşların və digər maraqlı şəxslərin suallarının cavablandırılmasını təmin edirik. Musa müəllimlə birlikdə müzakirə edərək, həm komissiyamız çərçivəsində, həm də digər millət vəkillərimizin iştirakı ilə də bir neçə dəyirmi masa keçirmişik. Bunu məmuniyyətlə davam edəcəyik və daha da geniş məlumatlandırmanı təqdim etməyə çalışacağıq.

Yekunda bir daha bildirmək istəyirəm ki, təqdim olunan büdcə layihələri Azərbaycanın sosial-iqtisadi siyasə-

tinin əsas prinsiplərinə, ana məramlarına uyğun şəkildə tərtib olunmuşdur və Azərbaycanda sosialyönümlü siyasətin növbəti il, növbəti dövr ərzində davam etdirilməsini hədəfləyir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sahil müəllim. Hörmətli həmkarlar, biz qanun layihələrini maddələr üzrə və bütövlükdə... Üzr istəyirəm, Sabir müəllim, yazılmısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İndi yazıldınız? Buyurun.

**S.Rüstəmxanlı**. Həmkarlar müzakirədə kifayət qədər geniş iştirak etdilər, geniş çıxışlar etdilər. Mənim, sadəcə, əmək və əhalinin sosial müdafiəsi naziri hörmətli Sahil Babayevin çıxışından sonra ondan bir xahişim, ona bir müraciətim var.

Dünən mən Neftçala rayonunda vətəndaşlarla görüşdə olmuşam, rayonda görülmüş işlər, görüləcək işlər barədə çox geniş söhbətlərimiz olub. Amma, sadəcə, konkret olduğuna görə mən bir məsələni demək istəyirəm. Bu da rayonda DOST Agentliyinin işi ilə bağlı müraciətlərdir. Mən çox xahiş edərdim ki, Nazirlik o agentliyin işini yoxlasın. Çünki bizim, təəssüf, deyək ki, dövlətin çox böyük qayğı ilə ayırdığı o vəsaitlər bəzi xırda məmurların əliəyriliyi nəticəsində ünvanlara kifayət qədər şəffaflıqla gedib çatmır.

Mən hamısına kölgə sala bilmərəm. Sosial müdafiə sahəsində çox böyük işlər görülür, ildən-ilə bunlar şəffaflaşır, ildən-ilə yeni texnologiyalarla həyata keçirilir, yad əllərin ora toxunmasının qarşısı alınır. Bunları bilirəm, amma əgər müəyyən, konkret şikayət varsa, bunu, xahiş edirəm, yoxlasınlar. O köhnə kartların müəyyən adamların cibində toplanması, filan məsələlər, görünür, hələ də davam eləyir. Bu barədə mənə birbaşa müraciətlər

olub. Mən çox xahiş edirəm, həmin rayonda DOST Agentliyinin işi yoxlanılsın və ora konkret olaraq müdaxilə olunsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sahil müəllim, söz istəyirsiniz, buyurun.

**S.Babayev.** Zəhmət olmasa. Xanım sədr, sadəcə, mən yanlışlıq, səhv fikir formalaşmaması üçün söz almağa çalışdım.

Sabir müəllim, mütləq araşdıracağıq, hər hansı bir sual yoxdur. Sadəcə, məlumat üçün bildirim ki, Neftçalada DOST Agentliyi yoxdur, onun fəaliyyəti yoxdur. Böyük ehtimalla bu sual haqqı ödənilən ictimai işlərlə bağlıdır. Haqqı ödənilən ictimai işlər yerli icra hakimiyyəti orqanlarına təhkim edilən işçilərlə bağlıdır. Onun DOST Agentliyinin fəaliyyəti ilə əlaqəsi yoxdur. Bildirdiyiniz faktı araşdırarıq, sadəcə, mən bu açıqlamanı vermək istədim ki, DOST Agentliyi ilə bağlı yanlış fikir formalaşmasın. O məsələni, haqqı ödənilən ictimai işlərin icra mexanizmini də biz yerli icra hakimiyyəti ilə birlikdə araşdırarıq.

**Sədrlik edən.** Sabir müəllim, Sizdə olan məlumatı verin, araşdırılsın. Mən düşünürəm ki, Sahil müəllim, çox sağ olun, Siz bunu dediniz, çünki, doğrudan da, DOST Agentliyi bölgələrdə çox böyük işlər görür. Nə məlumatınız varsa, Sabir müəllim, Siz verin, araşdıracaqlar.

Hörmətli həmkarlar, dediyim kimi, biz indi qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirik. Xahiş edirəm, diqqətli olun. Beləliklə, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi 9 maddədən ibarətdir və mən onları həmişə olduğu kimi, üç-üç səsə qoyacağam. Xahiş edirəm, indi 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə 4-cü, 5-ci və 6-cı maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə son üç maddəyə, 7-ci, 8-ci və 9-cu maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| --- | --- |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti qanun layihəsinin səsverməsinə keçirik. Bu, "Dövlət Sosial Fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Üç maddədən ibarətdir. Bir-bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| --- | --- |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

3-cü maddəyə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də 3 maddədən ibarətdir. Bir-bir səsə qoyuram. 1-ci maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə 3-cü maddəni səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

Xahiş edirəm, indi qanun layihəsinə bütövlükdə münasibət bildirəsiniz. Qanun layihəsi səsə qoyulur.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs verMədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. Mən isə hökumət üzvlərinə və nümayəndələrinə minnətdarlığımı bildirirəm. Sağ olun.

5-ci məsələyə keçirik. Bu qanun layihəsi Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Lahiyəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Hicran xanım, buyurun.

**H.Hüseynova**, *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun. Xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Mən ilk növbədə təqdim olunan qanun layihəsi ilə bağlı münasibət bildirən millət vəkillərinə öz təşəkkürümü bildirirəm. Səsləndirilən məsələlərlə bağlı qanunvericilik subyekti ilə müzakirə etmişik. Onlardan bir qismi hazırda təklif olunan qanun layihəsinin predmeti deyil. Məlumdur ki, hətta ölkə vətəndaşının şəxsiyyət vəsiqəsinin vaxtı bitirsə, onun bankda əməliyyat etmək, hər hansı bir arayış almaq, sənədin surətini notarial qaydada təsdiqləmək, ölkə daxili uçuşlar üçün təyyarə bileti almaq hüququ olmur. Çünki şəxsiyyətini təsdiq edən sənəd etibarlı deyil. Əlbəttə ki, yaşamaq, oxumaq, işləmək icazəsi olan miqrantın icazə vaxtı bitirsə, onun da sənədləri etibarlı deyil və onun bütün fəaliyyəti qanuni

əsaslarla olmalıdır. Qeyd edim ki, miqrasiya, vətəndaşlıq almaq, ölkədə işləmək, oxumaq, yaşamaqla bağlı hüquqi normativ aktlar qəbul olunub və onların icra mexanizmi də var və davamlı olaraq təkmilləşir. Hazırda təklif olunan layihə qanunsuz miqrasiyanın qarşısını almaq və bu məqsədlə keçirilən tədbirlərin effektivliyini artırmaqdır.

Nəzərinizə çatdırmaq istərdim ki, müvafiq olaraq, məqsədli nikahların yoxlanma mexanizmi, eləcə də miqrasiya ilə bağlı digər məsələlərlə əlaqədar beynəlxalq təcrübə öyrənilib və müvafiq olaraq, yeni təkliflər də hazırlanıb.

Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi ilə bağlı bildirmək istərdim ki, 12-ci maddəyə, yəni nikahın bağlanmasına mane olan hallar sırasına yeni bir bəndin əlavə edilməsi həm də ailə qanunvericiliyinin təkmilləşdirilməsidir.

Qanun layihəsi cari ilin 11 iyun tarixində komitə iclasında ikinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə olunmuşdur. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən keçən müzakirədən sonra kiçik bir məsələyə toxunmaq istəyirəm.

Bununla əlaqədar Gürcüstanda yaşayan çoxlu sayda həmvətənlərimiz müraciət edibdir. Bilirsiniz ki, bu gün Gürcüstanda azərbaycanlılar yaşayır. Hətta o kəndlərdə məktəblərin bir çoxu Azərbaycan məktəbləridir, Azərbaycan dilində təhsil alırlar. Amma Gürcüstan vətəndaşlarıdır, Gürcüstan dövlətində yaşayırlar. İndi biz qəbul etdiyimiz maddə ilə əlaqədar olaraq avtomatik o məsələ onlara da tətbiq olunur. Bir qohumu vaxtı ilə köçüb gəlib Azərbaycanda yaşayır, digər qohum orada yaşayır – xala nəvəsidir, bibi nəvəsidir, lap uzaq qohumdur. Gəlib evlənmək istəyir. Belə olur ki, pakistanlıya tətbiq etdiyimizi biz Gürcüstan azərbaycanlısına da tətbiq etməliyik. Yəni qanunvericiliyin tələbi budur. Bu, xarici vətəndaşdır, başqa ölkənin vətəndaşıdır. Amma milliyyətcə azərbaycanlıdır.

Mən hesab edirəm, gələcəkdə bunu danışıb biz burada hansısa, heç olmasa, Gürcüstanla bağlı bir variant tapmalıyıq ki, onların evlənməsində, ailə qurmasında belə bir problem yaranmasın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən maddələr üzrə səsverməyə keçirəm.

Bu qanun layihəsində 1 maddə var. Xahiş edirəm, həmin maddəyə səs verək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyacağam. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 6-cı məsələdir. Bu məsələ Vergi Məcəlləsində, “Yol hərəkəti haqqında”, “Avtomobil nəqliyyatı haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Mahir Abbaszadəyə söz vermək istərdim. Mahir müəllim, buyurun.

**M.Abbaszadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsində qeyd olunan qanunlarda nəzərdə tutulan səlahiyyətlərin publik hüquqi şəxs statuslu qurumlar tərəfindən də həyata keçirilməsi nəzərdə tutulur. Qanun layihəsi formalaşmış hüquqi

terminologiyaya uyğun olaraq hazırlanmışdır. Adıçəkilən qanun layihəsində "müvafiq icra hakimiyyəti orqanı" ifadəsi "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ifadəsi ilə əvəzlənir.

Xanım sədr, birinci oxunuşdan sonra hörmətli millət vəkillərimiz tərəfindən qanun layihəsi ilə bağlı heç bir irad və təklif səsləndirilməmişdir. İkinci oxunuşda qanun layihəsinin olduğu kimi səsə qoyulmasını Sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Mahir müəllim. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Buyurun, Kamal müəllim.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. İkinci oxunuşdur, əsas kimi qəbul etməliyik. Buyurun, bu qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Layihədə 3 maddə var, onları maddələr üzrə bir-bir səsə qoyacağam. Xahiş edi-

rəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.
2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.
3-cü maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.
İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildir-

məyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 7-ci məsələdir. “Mühasibat uçotu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Elnur Allahverdiyevə söz verirəm. Elnur müəllim, buyurun.

**E.Allahverdiyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi ilə bağlı birinci oxunuşda geniş məlumat verilmişdir. Hörmətli həmkarlarımız tərəfindən heç bir irad və təklif daxil olmadığından qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, əsas kimi qəbul etməliyik. Xahiş edirəm, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verMədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Etibar Əliyev. Etibar müəllim, buyurun.

**E.Əliyev.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. İlk öncə, hörmətli Sahibə xanım, Sizi Belarus Respublikasına rəsmi səfər çərçivəsində Belarus Dövlət Universitetinin fəxri professoru diplomuna layiq görülməyiniz münasibəti ilə təbrik edirəm.

Qanun layihəsi barədə. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliyin 14.1.2-ci maddəsində təklif olunan redaksiya belədir: "İmtahanda iştirak ödənişlidir. İmtahanda iştirak etmək üçün ödənişin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir".

Dəyişikliyin arayış hissəsində isə yazılır: "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotu fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi və mühasiblərin peşə biliklərinin artırılması məqsədi ilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən peşəkar mühasib sertifikatlarının verilməsi üçün imtahanlar keçirilir".

Qanun layihəsi adıçəkilən imtahanlarda iştirakın ödənişli olmasının, həmçinin bu imtahanda iştirak etmək üçün ödənişin məbləğinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən tədbiq edilməsinin hüquqi əsasları təsdiq olunur. Təklifim budur: universitetlərdə peşəkar mühasibat proqramı yaradılsın. Dövlət

İmtahan Mərkəzi peşəkar mühasib kursu açıb, mütəxəssisləri haradan cəlb edir? Əlbəttə ki, ali məktəblərdən. Ali məktəblərdə bakalavr, magistr pilləsində mühasibatlıq ixtisası varsa, onda buna nə ehtiyac var? Dövlət İmtahan Mərkəzi bu ixtisas üzrə mütəxəssis hazırlığına kölgə salmaq istəyir? Əgər ali təhsilin 2 pilləsində müvafiq diplom verilirsə, onda Dövlət İmtahan Mərkəzinin imtahanı nəyə gərəkdir?

Təhsilin keyfiyyətini yaxşılaşdırmaq lazımdır, ödənişli imtahan keçirmək yox. Özəl şirkətlər mühasibi özləri işə qəbul edir. Burada peşəkar mühasib sertifikatına nə ehtiyac var?

Mühasib hazırlayan ali məktəb, məsələn, UNEC İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyasının, ACCA-nın beynəlxalq akkreditasiyasından keçibsə, onda əlavə imtahana düşüncəmə görə, heç bir ehtiyac yoxdur. ACCA aparıcı beynəlxalq mühasibat orqanıdır. Bu kvalifikasiya yüzlərcə müxtəlif ölkələrdə tanınır və yerli kvalifikasiyalarla bərabər səviyyədə tutulur. Sertifikatlı mühasibat biliyi biznes sahəsində çox hörmətli və dəyərli beynəlxalq keyfiyyətlər verən qlobal peşəkar orqandır. Avropa Birliyi və BMT-yə üzv dövlətlər tərəfindən tanınır. Bəlkə Dövlət İmtahan Mərkəzi belə bir qurumun varlığından xəbərsizdir? Beynəlxalq nüfuzlu qurumun sertifikatını alan, yaxud magistr pilləsini bitirənlərin DİM-in sertifikatına nə ehtiyacı var?

Düşüncəmə görə, universitetin ən böyük üstünlüyü ixtisaslarının beynəlxalq akkreditasiyadan keçməsidir. Mühasib ixtisası verən ali məktəb qeyd etdiyim beynəlxalq akkreditasiyadan keçibsə, düşüncəmə görə, həmin mütəxəssislər üçün əlavə imtahana heç bir ehtiyac yoxdur. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Sabir müəllim, buyurun.

**S.Rüstəmxanlı.** Təşəkkür edirəm. Hörmətli sədr, mən bayaq, sadəcə olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə həmin məsələni aydınlaşdırdım. Orada DOST Agentliyinin nümayəndəsi var. Agentlik özü olmasa da, əlavə təmsilçiləri var. Aydınlaşdırdıq o məsələni.

Hörmətli sədr, icazə versəniz, mən konkret bu məsələ ilə bağlı olmayan bir neçə sözümü deyim. Bir müxalifət partiyasının lideri kimi əlavə söz almaq ixtiyarım da var.

Mən də gördüyünüz işlərə görə Sizi və bütün Məclisimizi, millətimizi Milli Qurtuluş Günü münasibəti ilə təbrik edirəm.

Amma bilirsiniz, son vaxtlar burada müəyyən dostlarımızın çıxışlarında bəzi fikirlər səslənir. 1988-ci ildən və ondan da əvvəl bu millətin içində və xalq hərəkatında olan bir adam kimi ona cavab verməsəm, özümə bunu bağışlamaram. Mənim həmkarım Tahir bəy bir az bu məsələyə toxundu.

1988-ci ildə 1 milyon, milyon yarım insan erməni işğalına, ermənilərin torpaq iddiasına qarşı çıxırdı, bunun hələ hakimiyyətə dəxli yox idi. SSRİ ordusu bu hərəkatı öz qanında boğdu. O vaxt da Moskvada ona ilk etiraz edən, Qorbaçov hakimiyyətinə etiraz edənlərdən biri, yəni birincisi Heydər Əliyev olub ki, bütün səsini dünyaya çatdırdı və Qorbaçovu ittiham etdi. Sonra SSRİ-nin dağılmasında ən mühüm rol oynayan amillərdən biri yenə Azərbaycan xalq hərəkatı idi. Bunu bütün tarix kitabları yazır. İndi görünür, tarixdən xəbərsiz və bu tarixin məntiqini bilməyən bəzi cavan dostlarımızın, biri də Bəhruz bəy olmaqla, – mən bir neçə dəfə onun çıxışlarını dinləmişəm, – içində xalq hərəkatına xroniki bir nifrət var. Səbəbini bilmirəm.

Bu xalq bizimdir. 1 milyon yarım insanın hərəkatına sən necə bu cür istədiyin bir ləkəni vura bilərsən? Elə şey olmaz. Azərbaycan Xalq Cəbhəsi, Müsavat hakimiyyəti, bəli, qüsurları var, tənqid etmək istəyirsən, tənqid elə, biz özümüz də tənqid etmişik. Amma o hakimiyyət müstəqilliyə imza atıb, biz o müstəqillik aktını imzalamış adamlarıq və hələ buradayıq. Oturmuşuq burada, hələ ki, ölüb getməmişik. Ölüb gedəndən sonra siz o şeyləri nə qədər istəsəniz, danışa bilərsiniz. Amma, əlbəttə, həmin hərəkata, həm Naxçıvanda, həm də Moskvada olanda... Zəhmət çəkin, Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 13-cü cildini götürün, oxuyun. Mənim onun haqqında kitabım var, "Ölüm son deyil: tanıdığım Heydər Əliyev". Götürün, oxuyun. Orada onun xalq hərəkatına münasibəti, xalq hərəkatı ilə əlaqələri, sonra səhvlər oldu, o səhvlərə münasibəti. Hamısını yazıb bu adam. Siz indiyə qədər... Kor-koranə danışmaqla olmaz ki, bu məsələlər.

Milli Məclisin deputatı dediyi sözün məsuliyyətini daşımalıdır. Bəli, səhvlər oldu və Heydər Əliyev gəldi, xalqı çox böyük fəlakətlərdən qurtardı. 2 gündən sonra da onu bayram edəcəyik. Çox böyük bir tarixi şəxsiyyətdir, hamımız sevirik. O, XX əsrdə Azərbaycanın yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Amma onu, eyni zamanda, Rəsulzadəyə qarşı qoymaq və başqasına qarşı qoymaq da lazım deyil. Hərəsinin öz xidməti var. Rəsulzadə 1918-ci ildə dövləti yaratmışdı, 1991-ci ildə biz onu bərpa etmişik. O bayraq, onlar Rəsulzadənin xidməti idi. Birini inkar edib o birini böyütmək olmaz. Biz bir-birimizlə çiyin-çiyinə dayananda böyüyürük. Tarix də ardıcıllıqdır. Bir tarixi inkar etdirib, o biri tarixi böyütmək olmaz. Kimisə böyütmək üçün başqasını kiçiltmək lazım deyil.

Heydər Əliyevin böyüklüyü ondadır ki, böyük

Azərbaycanda yetişib. Azərbaycanın yetirdiyi böyük şəxsiyyətlərlə yan-yanadır. Heydər Əliyev minillik Azərbaycan ədəbiyyatının hər bir şəxsiyyəti ilə qürur duyurdu və onları böyüdürdü, kiçiltmirdi.

Amma Siz indi ucdantutma hər şeyin üstündən xətt çəkməklə nə qazanırsınız? Sən cavan oğlan, bununla nə demək istəyirsən? "Mən bütün tarixə qarşıyam, bütün deyilənlərə qarşıyam. Mən bu cür fikirləşirəm". Sən səhv fikirləşə bilərsən. Bir az fikirləş. Mən bir dəfə sənə demişdim, dedim, bu məsələni deyəndə adam gözünü yumub ağzını açmaz, danışıb sonra düşünməz. Əvvəl düşünər, sonra danışar. Xahiş edirəm, ehtiyatlı olun. Bu bizim tariximizdir və biz də bu meydandayıq hələ. Təşəkkür edirəm.

**Sədrlik edən.** Hörmətli həmkarlar, biz qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirik. 1 maddədən ibarətdir. Üzr istəyirəm, layihə 2 maddədən ibarətdir.

Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçməmiş mən sizdən bir xahiş edəcəyəm, eyni zamanda, tələb də edəcəyəm. Biz qanun layihələri ilə bağlı danışırıq. Kimsə danışmaq istəyir, əlavə Ulu Öndər haqqında danışır, adını çəkir, ona görə də mən, təbii, heç kimin sözünü də kəsmərəm və kəsməmişəm. Ancaq xahiş edirəm, qanun layihəsi haqqında danışmaq lazımdır.

Bizim bundan sonra 3 məsələmiz qalır. Elə deyilmi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 4 məsələmiz qalır. Xahiş edirəm, indi qanun layihəsi ilə bağlı kim danışmaq istəyirsə, yazıla bilər. Növbəti qanun layihəsi bizim 8-ci məsələdə olan qanun layihəsidir. Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Layihəyə Ailə, qadın və uşaq məsələləri

komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Hicran xanım, mən yenə də Sizə söz verirəm. Buyurun.

**H.Hüseynova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Keçən plenar iclasda hörmətli millət vəkili Müşfiq Cəfərov bildirib ki, o nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçməsi ilə bağlı məlumatları əldə edə bilmir. Bununla bağlı mən bildirmək istərdim ki, qanun qüvvəyə minəndən, yəni 2015-ci il iyunun 1-dən etibarən məlumatlar verilir və həmin məlumatları müvafiq qurumlardan əldə etmək olur.

Boşanmalarla bağlı məsələyə gəldikdə isə bu, hamını düşündürməlidir. Əlbəttə ki, bu problem çox vacibdir. Hörmətli xanım sədr, Sizin dəstəyiniz və təşəbbüsünüzlə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi bu mövzu ilə bağlı bir neçə ictimai dinləmələr də keçirmiş, təkliflər hazırlamışdır. Millət vəkilləri də müxtəlif tədbirlərdə iştirak edir və bu mövzu ilə bağlı münasibətlərini bildirirlər.

Qanun layihəsi bizim komitənin iclasında da müzakirə olunub. Əlavə rəy və təklif verilməyib və ikinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə olunub. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. 4 nəfər yazılıb. Fazil Mustafa. Buyurun, Fazil müəllim.

**F.Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Təbii ki, bu qanun layihəsində istisna olaraq 13.5-1-ci maddədə nəzərdə tutulan müddəalar təqdirəlayiqdir. Çünki konkret vəzifə borcunu yerinə yetirən diplomatların və onun korpus nümayəndələrinin fəaliyyətini asanlaşdırmaq, həm də onların ailə həyatı qurmasında bu əngəlləri ortadan qaldırmaq üçün düşünülübdür. Ona görə bu qanun layihəsinə dəstək verəcəyəm. Amma mən bu istiqamətdə qanunun müddəalarının artıq sərtləşməsinin tərəfdarıyam və bu dəyişikliklər, məncə, bir az daha geniş götürülsə, daha məqsədəuyğun olardı. Xüsusi ilə də tibbi müayinənin məcburiliyi aspektini gücləndirmək baxımından deyirəm.

Diqqət edirsinizsə, Azərbaycanda bu ilin ilk 4 ayında nikah bağlayanların sayı 14 min, amma boşananların sayı təxminən 7 min olubdur. Harada isə bunun yarısı qədər boşanma faktı var və bu boşanma faktorunun səbəbləri içində, mən hesab edirəm ki, minimum 30 faizi məhz tibbi müayinə ilə bağlı məsələyə ciddi şəkildə əməl olunmaması ilə bağlıdır. Yəni bu arayışların verilməsi və başqa məsələlər o dərəcədə ciddi nəzarətə götürülməlidir, – xatırlayırsınızsa, biz hərbi mükəlləfiyyətlərlə bağlı insanların tibbi komissiyadan keçməsi ilə bağlı strukturu dəyişdik və yeni bir formada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə etdik, – çünki bu, ciddi məsələdir. Çünki həm hərbi çağırışla bağlı, həm də bu məsələdə şəf-

faflığın artırılması üçün bu kateqoriyadan olan müayinə prinsipləri genişlənməlidir. Məsələn, bununla bağlı biz həm də burada, qanunvericilikdə nəzərdə tutmuşuq, həkim sirridir və bu sirr paylana bilməz. Bu, doğrudur. Amma tərəflərə bununla bağlı dəqiq məlumatların verilməsi olduqca önəmlidir. Baxın, onlarca ailə var ki, ailə qurandan iki ay sonra fərdlərdən birinin ağır xəstəliyə düçar olduğu bəlli olur. Demək bir ailənin sütunu başdan dağılmış vəziyyətə gəlir çıxır. Söhbət boşanmadan ya ayrılmadan getmir. Amma iki nəsil, iki tayfa arasında böyük problemlər yaşanmış olur. Ona görə də mən hesab edirəm ki, bu dəyişikliklərin davamı gəlməlidir.

Hörmətli Hicran xanım da bunun zərurətini haqlı olaraq qeyd etdi. Davamı gəlməlidir və bu tibbi müayinə ilə bağlı qaydalar kifayət qədər ciddi şəkildə sərtləşdirilməlidir. Eybi yox, qoy, nikahdan qabaq hansı isə çətinliklər, prosedurlar, müəyyən mürəkkəbliklər olsun. Amma bu, sonrakı mərhələdə daha böyük faciələrin yaşanmasına gətirib çıxarmasın. Diqqət edirsinizsə, qanunvericilikdə bizdə var ki, məsləhət almaq üçün ailə qurmazdan qabaq dövlət, ya bələdiyyə, – təbii, qanunda nəzərdə tutulsa da, bizdə bələdiyyə tibb müəssisəsi yoxdur, – tibb müəssəsində pulsuz məsləhət ala bilərlər. Amma hesab etmirəm, belə bir fakt var ki, kimsə belə bir müraciət etsin. Yəni hamı dədə-baba qaydasında yaxınlarla, müəyyən qohumlarla bunu məsləhətləşir ki, hansı isə bir ailə planlaması olanda bunu məsləhətləşirlər. Amma biz, heç olmasa, tibbi müayinə məsələsində tərəflərin məcburiyyətini qanunvericilikdə bütün addımlarda sərt şəkildə qoymalıyıq ki, gələcək ailə institutunu qoruya bilək və burada şəffaflıq olsun, tərəflər bu prosedurdan əvvəl kifayət qədər məlumatlı olsunlar. Təbii, sonrakı mərhələdə onların seçimidir

ki, onlar əgər hansı isə bir sevgi motivi, hansı isə başqa motivlə fədakarlıq edirsə, bu imkan tanınsın. Bu, insanın haqqıdır, bunu pozmaq olmaz. Amma məlumatlandırma sferasını biz fərdlər üzərində genişləndirməliyik və ailə institutunu bu istiqamətdə qorumağa çalışmalıyıq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Doğrudan da, qanun layihəsi çox vacib bir qanun layihəsidir. Hörmətli həmkarım Fazil müəllim də bunun müəyyən detallarına toxundu. Mən hesab edirəm, bu müayinədən keçmənin müəyyən müddətləri də müəyyən olunmalıdır. Bu, qabaqcadan olmalıdır ki, görürsən, deyir, toy elan olunub, artıq elə bir vəziyyətdir, bir arayış almaqdan ötrü çox cənfəşanlıq edirlər və nəticə etibarı ilə də gəlir müəyyən problemlər ortaya çıxır. Baxın, elə xəstəliklər var ki, bu gün hamımıza ürək çatışmazlığı ilə bağlı müraciət edirlər. Xanımlar var ki, uşaq dünyaya gətirə bilmirlər. Əgər o, vaxtında müayinədən keçib və bunun nəticəsi ortaya çıxdıqda müəyyən olunsa ki, müəyyən illər o müalicə olunduqdan sonra artıq ailə qura bilər, doğrudan da, bu, təqdirəlayiq olar. Hesab edirəm, bu qanunda da öz əksini daha sərt formada tapmalıdır ki, bu məsələdə heç kəsə güzəşt olmasın. Bu, məsələnin birinci tərəfi.

İki məsələyə də qısaca olaraq toxunmaq istəyirəm. Birincisi, qohum nikahları ilə bağlı olan məsələdir, bu gün gündəmdə çox geniş müzakirə olunur və əhali arasında da sorğular şəklində və digər şəkillərdə formalaşır. Mən hesab edirəm, bu addımın atılması düzgündür. Amma birdən-birə yox. Bu, insanların, azərbaycanlıların ənənəsidir, adətidir. Bu adət illərlə yaranıb, yaşayır və gəlib çıxıbdır, müəyyən regionlarda bu var, olubdur. Uşaq hətta doğu-

landa biri-biri ilə qohumluq əlaqəsi qururlar. Yəni belə bir formanın yaranmasının birdən-birə biz kəskin şəkildə qarşısını alaq ki, burada doğulan uşaqlar xəstə doğulacaqdır, ona görə bunlar nikaha girməsinlər, bunu mən real hesab etmirəm. Ola bilər ki, sağlam doğula da, sağlam doğulmaya da bilər. Bizim böyük "Kitabi Dədə Qorqud" dastanımız var və biz hamımız, bütün türk dünyası ona istinad edirik. Bayandur xan uşaqlar dünyaya gələn kimi iki oğuz tayfasını bir-biri ilə qohum edirdi. Bəyəm biz ona istinad ediriksə, köklərimizə istinad ediriksə və bu köklərdən də birdən-birə imtina edə bilmərik, çəkilə bilmərik. Biz hissə-hissə, təbliğat vasitəsi ilə, tövsiyə etməklə camaatı uzaqlaşdıra bilərik. Qalan hallarda istər Cənub bölgəsində, istər Naxçıvan bölgəsində, istərsə də Bakıda bu ənənə var, mövcuddur və birdən-birə biz onlara bu qaydaları tətbiq etmək imkanına malik deyilik və güman edirəm ki, effekti də çox aşağı ola bilər.

İkinci bir tərəfi, dini nikahlarla bağlı da məsələlər deyilir. Bu saat onun nə zamanıdır, nə yeridir. Mən hesab edirəm ki, bu məsələyə toxunmağa da ehtiyac yoxdur. Biz baxırıq, dünyanın hər yerində bütün krallar evlənəndə birinci kilsəyə gedirlər, uşaq doğulanda birinci kilsəyə aparırlar. Belə hamıdan qabağa düşən biz olduq. Bəlkə dinimizdən və milli adət-ənənəmizdən qismən də uzaqlaşırıq. Bəli, naşı molla var, naşı molla kəbininə biz razı deyilik, yetkinlik yaşına çatmayanlara kəbin kəsməni qanun da qadağan edir. Amma dini kəbin Allah Təalanın razılığıdır. Birinci Allahdan razılıq olmalıdır, sonra hökumətdən. Allah Təala razılığını verir, sonra da hökumət razılığını verir və gedir xoşbəxt ailə qurur. Ona görə də mən hesab edirəm ki, Hicran xanım bu məsələyə diqqət yetirsə, daha yaxşı olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Siyavuş müəllim, dediyiniz bəzi o məqamlar heç bu qanunda yoxdur. Bu bir, ikincisi isə indi Siz elə məsələlərə toxunursunuz, mən düşünürəm, Siz birinci bunu Hicran xanımla komitədə danışın, sonra biz bura çıxaraq. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən də dəyişikliyə səs verəcəyəm. Amma burada bir məsələnin üzərində mən də bir daha durmaq istəyirəm. Əslində, biz bir neçə dəfə də bu məsələyə toxunmuşduq. Azərbaycan cəmiyyətində boşanmalarla bağlı məsələyə. Həqiqətən, bu, çox ciddi bir tendensiyadır və ciddi bir narahatlıq doğuran məsələdir ki, sürətlə artır. Biz əvvəlki dövrdə rəsmi məlumatlara baxanda nikaha daxil olanların üçdə birinin nikahının pozulduğu ilə bağlı məlumatları əldə edirdiksə, indi artıq bu rəqəm ciddi bir formada artır. Ümumiyyətlə, nikaha yanaşma ilə bağlı biz fərqli tendensiyaları görürük. Bu gün gənclərin bir hissəsi artıq nikaha daxil olmaq istəmirlər. Bu, oğlanlar arasında da, qızlar arasında da var. Bir sıra hallarda da bu, məsuliyyətdən yayınma ilə bağlı baş verən hadisədir.

Ona görə düşünürəm ki, bu məsələyə bəli... Bir dəfə biz Hicran xanımla bu məsələni müzakirə etmişdik. Bu proses bütün dünyada gedir, bu tendensiya dünyanın əksər ölkələrində var. 50 faiz, 50 faizdən aşağı, bir az yuxarı. Amma biz nəzərə alsaq ki, bizim kimi cəmiyyətlərdə bir fərdin formalaşmasında ailənin rolu çox böyükdür. Həm ailə, həm də məktəb bu prosesdə çox fəal bir rol oynayır. Ona görə mən düşünürəm ki, daha çox geniş təbliğat, maarifləndirmə işlərinin aparılmasına ehtiyac var. Gənclərin əksəriyyəti nikaha daxil olarkən nə üçün daxil olduqlarını da bilmirlər və bu, sonrakı dövrdə bizim üçün müəyyən problemlər yaradır. O mənada biz əhali ilə daha

sıx işlənilməsi, daha geniş təbliğat və maarifləndirmə işlərinin aparılmasına çalışmalıyıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Mənim də ikinci oxunuşun tələbinə müvafiq olaraq, layihənin 13-cü maddəsi üzrə qısa bir təklifim var. 13.5-1 maddəsində "diplomatik nümayəndəliyin (konsulluq idarəsinin) akkreditə olunduğu, yaxud yerləşdiyi xarici dövlətdə" ifadəsi var. Hesab edirəm ki, burada "dövlət" sözünün "dövlətlərin birində" ifadəsi ilə əvəzlənməsi məqsədəuyğun olar. Çünki bəzi hallarda diplomatik missiya bir neçə ölkədə akkreditə olunur.

Hörmətli sədr, ikinci bir məqamı da mən qeyd etmək istəyirəm. Parlament, təbii ki, mövqelərin toqquşma meydanıdır. Tənqid, tövsiyə qəbul ediləndir, xüsusən, qiymətli deputatlar tərəfindən və bu cari reaksiyalar da göstərir ki, biz hədəfimizə doğru formada dəyə bilmişik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kimsə yazılmışdı, çıxdı, deyəsən. Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, buyurun, istəsəniz, deyə bilərsiniz. Bəlkə ikinci oxunuşdan sonra... Bəli.

**H.Hüseynova**. Hörmətli Siyavuş müəllimin qaldırdığı məsələlər bu qanunla bağlı deyil. Hələ gələn plenar iclasa qədər bununla bağlı komitənin iclası keçiriləcək, orada müzakirə olunacaq.

Amma mən iki məsələyə toxunum. Burada deyəndə, biz bu məsələləri birdən-birə gündəliyə gətiririk, bu məsələni 1970-ci ildə Ulu Öndər ilk dəfə qaldırmışdı ki, Azərbaycanda belə nikahların qarşısını almaq lazımdır. O

zaman da o, dövlət qurumlarına xüsusi tapşırıqlar vermişdi ki, bu istiqamətdə bir yoxlayın, baxın, bu, zərər vuran məsələdir. O vaxtı Ulu Öndərə dedilər ki, biz bunu hələ qanunla deyil, maarifləndirmə ilə keçirək. İndi o vaxtdan bu günə qədər Siz necə düşünürsünüz, maarifləndirmə az keçirilib Azərbaycanda? Artıq bu, elə bir vəziyyətə gətirib çıxarıb ki, bunların sayı gündən-günə artır. Ona görə ki, bu bizə zərər vuran bir problemdir. Genefondumuza vurulan bir zərərdir. Ona görə də bunu artıq belə bir səviyyəyə gətirib çıxarıblar. Çox sağ olun.

**Sədrlik edən.** Hicran xanım, elə dediyiniz onun təsdiqidir. Bu yaxında qanun layihəsi gələndə, dediniz, hansı isə iclasda, ondan öncə komitənizdə, həm müzakirə, həm də dinləmə keçirmək lazımdır, orada əgər müxtəlif fikirlər səslənirsə, deməli, Sizin dediklərinizin də hamısı əsaslandırılmalıdır.

Hörmətli həmkarlar, biz qanun layihəsinə maddələr üzrə münasibət bildirməliyik. Layihədə 3 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci maddə də qəbul edildi.

İndi isə 3-cü maddəni mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

9-cu məsələyə keçirik. Hörmətli həmkarlar, bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu

komitəsində baxılıb və mən indi sözü komitənin üzvü Kamal Cəfərova verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov**. Çox sağ olun, hörmət xanım sədr. Hər hansı bir rəy və təklif olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Sözü, sualı olan yoxdur və mən qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirəm. Bu qanun layihəsi 7 maddədən ibarətdir. Mən onların üçünü bir, dördünü isə bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci, 2-ci, 3-cü maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə xahiş edirəm, qalan 4 maddəyə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ Vergi Məcəlləsində, "Dövlət rüsumu haqında" Qanunda və digər 4 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün Tahir müəllim, mən Sizə söz verirəm. Buyurun. Tahir Mirkişili.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Xanım sədr, mən birinci oxunuş zamanı layihə haqqında geniş məlumat vermişdim. Qısa deyim ki, təklif olunan layihə müdafiə sənayesi sahəsində sahibkarlıq subyektlərinin liberallaşması, onlara xüsusi icazə verilməsi ilə bağlıdır.

Düşünürəm ki, özəl sektorun bu sahəyə cəlb olunması kifayət qədər böyük iqtisadi məna daşıyır. Qanun layihəsi bu sahədə olan özəl sektor təmsilçilərinə xüsusi icazə vermək, bu fəaliyyəti əlavə dəyər vergisindən azad etmək, idxal olunan məhsulları isə bu istiqamətdə gömrük rüsumundan azad etməklə bağlıdır. Birinci oxunuş zamanı həmkarlarım dəstəkləyiblər. İkinci oxunuşda da qanun layihəsini dəstəkləməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Ziyafət müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, komitəni rəyini bildirin.

**Z.Əsgərov**, *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də hesab edirəm ki, bu qanun layihəsi müdafiə sənayesində fəaliyyətin liberallaşdırılması baxımından olduqca vacibdir və bizim müdafiə təyinatlı məhsulların dayanıqlığına daha çox böyük dəstək olacaq və bizim xaricdən ixrac asıllığımızı azaldacaqdır. Ona görə də mən də bu qanun layihəsini bəyənirəm və hesab edirəm ki, vaxtında verilmiş qanun layihəsidir, qəbul edilən qanun layihəsidir və komitənin rəyi müsbətdir. Xahiş edirəm, dəstəkləyəsiniz.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---:|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən, sualı olan yoxdur, biz səsverməyə keçirik. Layihə 6 maddədən ibarətdir. Üç-üç səsə qoyacağam. Xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə 4-cü, 5-ci və 6-cı maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəliyin sonuncu, 11-ci məsələsinə keçirik. "Auditor xidməti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitəni üzvü hörmətli Anar Məmmədova söz verirəm. Anar müəllim, buyurun.

**A.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar, "Auditor xidməti haqqında" Qanunda edilən dəyişikliklə bağlı qanun layihəsi barədə birinci oxunuşda məlumat verilmişdir. Xatırlatmaq istərdim ki, layihə sərbəst auditorlar və auditor təşkilatları ilə aparılan audit məlumatların məxfilik çərçivəsində təkmilləşdirilməsinə töhfə verir. Qanun layihəsi ilə bağlı birinci oxunuşda heç bir irad və təklif olmadığına görə, hörmətli həmkarlarımızdan qanun layihəsinə səs verib dəstəkləmələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Anar müəllim, çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən, sualı olan yoxdur. Qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirik. Bu qanun layihəsi 1 maddədən ibarətdir. Həmin o maddəyə xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Bizim iclasımız başa çatdı.

Növbəti iclasımız ayın 21-ində olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## ***<u>14 iyun 2024-cü il</u>***

**Azay Quliyev.** Azərbaycan xalqı sabah, iyunun 15-də dövlətçiliymiz və müstəqilliyimiz üçün həyati əhəmiyyət kəsb edən tarixi günü – Milli Qurtuluş Gününü qeyd edir. 15 iyun 1993-cü il. Düz 31 illik zaman kəsimi bizi bu tarixi gündən ayırır. O günə kimi çox çətin və keçməkeşli günlərini yaşayan xalqımız iki yol ayrıcında qalmışdı – yeni boy atmaqda olan müstəqillik xəyallarının gerçəkləşdirilməsi, yoxsa bu ümidlərin birdəfəlik dəfn edilməsi, dövlətinin və cəmiyyətinin ayrı-ayrı hissələrə parçalanmasının davamı, yoxsa vahid Azərbaycan bayrağı altında birləşərək var olması, hakimiyyət böhranının, siyasi özbaşınalığın, vətəndaş müharibəsinin və cinayətkarlığın dərinləşməsi, yoxsa hüquqi dövlətin, güclü və etibarlı hakimiyyətin yaradılması, cəmiyyətdə ictimai barış sabitliyin bərqərar olması, iqtisadi və sosial problem yoxsulluğun və işsizliyin tüğyan etməsi, yoxsa çiçəklənən və inkişaf edən, gələcəyə ümidlə baxan bir ölkənin inşası.

Bir sözlə, Azərbaycan xalqı və dövləti 15 iyun 1993-cü ilə kimi ölüm və qalım arasında çarpışır, düşdüyü bataqlıqdan çıxmaq üçün yalnız və yalnız bir tarixi şəxsiyyətə, zamanın sınağından çıxmış Heydər Əliyevə güvənir və ondan kömək istəyirdi. Bu da səbəbsiz deyildi. Ona görə ki, nə vaxt Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətinə və xalqına rəhbərlik edibsə, o zaman xalqımız və dövlətimiz böyüyüb, inkişaf edib, ona qarşı oynanılan bütün oyunların və çirkin planların qarşısı qətiyyətlə alınıb. Nə vaxt Ulu Öndər Heydər Əliyev hakimiyyətdə

olmayıb, o zaman xalqımız və dövlətimiz üçün dəhşətli və faciəli günlər başlayıb, soydaşlarımız soyqırıma və deportasiyaya məruz qalıb, torpaqlarımıza, dövlətçiliyimizə və milli kimliyimizə təcavüz olunub, siyasi hakimiyyət böhranı və idarəetmədə xaos qaçılmaz olub. Məhz, 1987-ci ilin oktyabrında Heydər Əliyev Sovetlər Birliyinin rəhbərliyindən istefa verəndən bir ay sonra xalqımızın ağır və faciəli günləri başladı, Qarabağda erməni separatizmi baş qaldırdı, 5 ildə 5 dəfə hakmiyyət böhranı yaşandı, iqtidar dəyişdi, ölkə idarəedilməz vəziyyətə düşdü. Bacarıqsız, prinsipsiz və milli ruhu olmayan, ən böyük vəzifələrini Heydər Əliyev haqqında “donos” yazdırmaqda görən, Qobaçovun bütün anti-Azərbaycan tapşırıqlarını canla-başla yerinə yetirən Kamran Bağırov, Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibovun yarıtmaz rəhbərliyi dövründə soydaşlarımız 1988-ci ilin əvvəllərindən etibarən Ermənistan deyilən tarixi torpaqlarından deportasiya edildi, xalqımıza qarşı 20 Yanvar faciəsi və Xocalı soyqırımı törədildi, Qarabağın silahlı işğalına başlanıldı.

Yaqub Məmmədov və AXC–Musavat cütlüyünün hakimiyyəti dövründə isə bütün sahələrdə başlanan böhran daha da dərinləşdi. Qarabağın dağlıq hissəsi, Şuşa, Laçın və Kəlbəcər Ermənistan tərəfindən işğal olundu, digər rayonların işğalı üçün əlverişli zəmin yaradıldı. AXC–Musavat iqtidarının hakimiyyət hərisliyi və səbatsızlığı nəticəsində Azərbaycan real parçalanmaq və müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldı, qardaş qanı axıdıldı və ölkə vətəndaş müharibəsinə sürükləndi. Ölkə iqtisadiyyatı tam iflic vəziyyətə düşdü, infilyasiya misli görünməmiş dərəcədə yüksəldi və insanların həyat səviyyəsi dözülməz hal aldı. Milli və nizami ordu qurmaq əvəzinə, hər partiya və siyasi qrup özünə silahlı dəstələr

yaratdı və bu dəstələrdən hakmiyyət uğrunda gedən mübarizədə vicdansızcasına istifadə etdilər.

AXC–Musavat iqtidarı dövləti saldıqları bataqlıqdan çıxarmağın və Azərbaycan xalqının qəzəbindən qurtulmağın yeganə yolunu böyük dövlət adamı, idarəetmənin və siyasətin ustadı Heydər Əliyevi hakimiyyətə dəvət etməkdə gördülər. 1993-cü il iyunun 15-də Heydər Əliyev Milli Məclisin sədri seçilməklə Azərbaycan dövlətinin və xalqının xilaskarlıq missiyasına və milli qurtuluş savaşına başladı. Missiya ağır, təhlükəli və məşəqqətli idi. Bu ağır yükün öhdəsindən gəlmək üçün fövqəladə güc, bacarıq, mahir diplomatiya, siyasi fəhm, qəti iradə və cəsarət, dövlətçilik və idarəetmə təcrübəsi, xalqına təmannasız sevgi, xalqın yüksək etimadına və inamına nail olmaq, xüsusi ilə millət və dövlət yolunda hər şeydən, o cümlədən canından keçməyə hazır olmaq kimi ali və peşəkar keyfiyyətlərin bir şəxsiyətdə, liderdə cəmlənməsi tələb olunurdu. Azərbaycan xalqı və dövləti bu baxımdan çox şanslı idi. Çünki bütün bu ali keyfiyyətlərin hamısı Ulu Öndər Heydər Əliyevdə cəmləşmişdi. Məhz bunun sayəsində Heydər Əliyev ilk baxışdan mümkün olmayanı mümkün edə bildi, üzərinə götürdüyü xilaskarlıq missiyasını və milli qurtuluş savaşını qələbə ilə və şərəflə başa çatdırdı. Heydər Əliyev canından artıq sevdiyi Azərbaycanı parçalanmqdan və iç savaşdan qurtardı, xalqın müstəqil yaşamaq inamını özünə qaytardı, siyasi hərcmərciliyə və anarxiyaya son qoydu, ictimai-siyasi sabitliyi və qanunçuluğu bərqərar etdi, silahlı müxalifəti və milli satqın şəbəkəsini ifşa etdi, hüquqi və demokratik dövlət quruculuğuna, iqtisadiyyatın yenidən qurulmasına və sosial rifahın yaxşılaşdırılmasına və bir sözlə, müasir Azərbaycan adlı möhtəşəm binanı kəpic-kərpic yenidən

tikməyə başladı və buna müvəffəq oldu.

Milli Qurtuluş Günündən başlayaraq Heydər Əliyev dühası elə bir siyasi məktəb yaratdı, milli və müstəqil dövlətimizin elə güclü və dayanıqlı təməli qoyuldu ki, xalqımız 31 ildir bunun bəhrəsini görür. 31 ildir ki, Heydər Əliyev siyasəti və milli qurtuluş fəlsəfəsi bütün imtahanlardan və sınaqlardan şərəflə çıxaraq xalqımıza xidmət etməyə davam edir.

Ulu Öndər Heydər Əliyevin böyüklüyü və uzaqgörənliyi həm də onda idi ki, bir çox ətraf ölkələrdən, xüsusi ilə Ukrayna, Moldova, Gürcüstan, Ermənistan və digərlərindən fərqli olaraq, dövlətçiliyin təməlini təşkil edən uğurlu siyasi varis kimi həssas və məsuliyyətli bir vəzifəni zamanında həll edə, cənab İlham Əliyevi bu mübarək missiya üçün yetişdirə bildi. Cənab İlham Əliyev isə nəinki Ulu Öndər Heydər Əliyevin dövlətçilik və siyasi mirasına sahib çıxmağı bacardı, həm də Heydər Əliyev siyasətinin nə qədər doğru, müdrik və əbədiyaşar olduğunu öz əməli və şücaəti ilə bütün dünyaya nümayiş elətdirdi, Prezident seçiləndən sonra Ulu Öndərin həyata keçirməyə macal tapmadığı bütün ideya və arzularını, vəsiyyət və tapşırıqlarını bir-bir və qüsursuz olaraq yerinə yetirdi.

Prezident İlham Əliyev Azərbaycanın güclü iqtisadiyyatını yaratdı, vətəndaşların həyat səviyyəsini yüksəltdi, yoxsulluq həddini minumuma endirdi, ölkəmizi dünyada daha da tanıtdı, peşəkar milli ordu yaratdı, milli ruhu və azərbaycançılıq məfkurəsini hər zaman diri tutdu, torpaqlarımızın işğalı ilə barışmadı və bütün təzyiqlərə baxmayaraq, Ermənistanla aparılan danışıqlarda bir addım da olsa milli maraqlardan geri çəkilmədi, ən vacibi isə xalqı və ordunu son və həlledici döyüşə hazırlaya bildi. Cəmi 44+1 günə bütün işğal olunmuş əraziləri, hələ də bir

çoxumuz üçün möcüzə kimi olan Şuşanı, Xankəndini, Xocalını, Xocavəndi, Əsgəranı və bir sözlə, bütün Qarabağı misli görünməmiş fədakarlıq, qətiyyət, diplomatiya və siyasi zəka ilə azad etdi. Mübaliğəsiz demək olar ki, 21-ci əsrdə, xüsusi ilə böyük hərbi güclərin Ukraynada və Orta Şərqdə düşdükləri çıxılmaz bataqlığın fonunda müzəffər Ali Baş Komandan İlham Əliyevin, Azərbaycan xalqının və şanlı ordumuzun əldə etdiyi 44+1 günlük hərbi və siyasi qələbənin dünyada heç bir analoqu yoxdur. Bu baxımdan, dünya azərbaycanlılarının hiss etdiyi milli qürurun və özgüvənin də dünyada tayı-bərabəri yoxdur.

Hər keçən gün Milli Qurtuluş Günü ilə başlayan Heydər Əliyev siyasətinin təntənəsinin şahidi oluruq. Bugünkü Azərbaycan artıq Cənubi Qafqazın aparıcı ölkəsi statusundan daha çox irəliyə gedərək dünya çapında söz sahibinə çevrilibdir. Ölkəmiz dünya siyasətinin formalaşmasında öz iştirakını və təsirini artırmaqdadır. Artıq kiçik ada dövlətləri və Fransanın dənizaşırı ölkələri beynəlxalq qanunlara və prinsiplərə uyğun olaraq, müstəmləkə buxovlarından azad olmaq və müstəqilliklərini əldə etmək yolunda Azərbaycana ümid yeri kimi baxırlar. Bu gün Prezident İlham Əliyev Qlobal Cənubla Avropa İttifaqı, Qərb arasında COP29 çərçivəsində körpü yaratmaq kimi qürurverici bir qlobal missiyanı həyata keçirməkdədir. Əminəm ki, Azərbaycanın taleyini dəyişən Milli Qurtuluş Gününün əks-sədaları hələ bundan sonra dünyaya daha çox səs salacaqdır. Milli Qurtuluş Günün mübarək, Azərbaycan xalqı!

* * *

Dövlət büdcəsində artırılması təklif olunan 3 əsas istiqamət haqqında qısa danışmaq istərdim.

1) İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması və tikinti işlərinin sürətləndirilməsi üçün əlavə 1 milyard 160 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Beləliklə, 2024-cü ildə bu məqsədlə cəmi 5 milyard 160 milyon manat vəsait xərclənəcək. Nəzərə almaq lazımdır ki, Azərbaycan işğaldan azad edilmiş torpaqlarını minalardan təmizləmək, bərpa etmək, keçmiş məcburi köçkünləri təhlükəsiz və rahat şəraitdə öz dədə-baba yurdlarında təkrar məskunlaşdırmaq üçün heç kimdən yardım almır. Əlbəttə, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Belarus, Slovakiya və Macarıstan kimi qardaş və dost ölkələrin ayrı-ayrı layihələrini nəzərə almasaq, bizə heç bir maliyyə dəstəyi verilmir. Əgər Ermənistan bizim üzləşdiyimiz problemlə üzləşsəydi, yəqin ki, çeşidli donor konfransları təşkil olunar, əksər beynəlxalq maliyyə qurumları və bir çox inkişaf etmiş Qərb ölkələri Ermənistana külli miqdarda təmənnasız vəsait ayırar və yardım edərdilər. Ancaq biz yenə də bu məsələdə ikili standartlarla və siyasi riyakarlıqla üz-üzəyik. Buna baxmayaraq, cənab Prezidentin dediyi kimi, dövlətimiz heç kimə möhtac deyil və biz problemimizi öz hesabımıza həll etmək gücündəyik.

2) Ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da gücləndirilməsi üçün büdcədə 807 milyon manat vəsaitin artırılması nəzərdə tutulur. Hazırkı şəraitdə ölkəmizin müdafiə qabiliyyətinin daha da artırılması məqsədi ilə əlavə vəsaitin ayrılması alqışlanmalıdır. Ona görə ki, Ermənistan sözdə sülhdən danışsa da, əməldə sürətli silahlanma kursunu həyata keçirməkdədir. Təkcə son həftə Ermənistan müdafiə naziri Papikyanın Belçikaya, Serbiyaya və Bolqarıstana etdiyi səfərlər çərçivəsində hərbi əməkdaşlıq və silah alışı ilə bağlı imzaladığı sənədləri,

Azərbaycana qarşı düşmən mövqedə olan Fransanın Ermənistanı silahlandırması fonunda, əlbəttə, biz müdafiə qabiliyyətimizi hər keçən gün daha da artırmalıyıq və necə ki, artırırq. Ona görə də büdcədə hərbi xərclərin artırılması kifayət qədər təbii və əsaslıdır.

3) Beynəlxalq münasibətlər, ölkəmizdə keçirilən qlobal miqyaslı tədbirlər, ayrı-ayrı beynəlxalq təşkilatlarda və xarici ölkələrdə milli maraqlarımızın müdafiəsi istiqamətində həyata keçirilən təxirəsalınmaz layihələrin maliyyələşdirilməsinə artan tələbat 498 milyon manat vəsaitin ayrılmasını şərtləndirir. Bugünkü Azərbaycan artıq Cənubi Qafqazın aparıcı ölkəsi statusundan daha çox irəliyə gedərək dünya çapında söz sahibinə çevrilməkdədir. Ölkəmiz dünya siyasətinin formalaşmasında öz iştirakını və təsirini artırmaqdadır. Artıq kiçik ada dövlətləri və Fransanın dənizaşırı ölkələri beynəlxalq qanunlara və prinsiplərə uyğun olaraq, müstəmləkə buxovlarından azad olmaq və müstəqilliklərini əldə etmək yolunda Azərbaycana ümid yeri kimi baxırlar. Bu gün Prezident İlham Əliyev Qlobal Cənubla Avropa İttifaqı, Qərb arasında COP29 çərçivəsində körpü yaratmaq kimi qürurverici bir qlobal missiyanı həyata keçirməkdədir. Təxminən 5 aydan sonra dünya ölkələrinin liderləri Azərbaycana gələcək və ölkəmiz çox mötəbər beynəlxalq tədbirə, COP29-a ev sahibliyi edəcək. Buna görə beynəlxalq sahədə fəaliyyətimizi daha güclü və etibarlı qurmaq üçün təklif olunan 498 milyon manatın ayrılması kifayət qədər əsaslıdır və dəstəklənməlidir.

Təqdirəlayiq haldır ki, büdcə dəyişikliyi üçün əsas yaradan əlavə vəsaitlərin böyük bir hissəsi büdcəyə əlavə daxilolmalar hesabına formalaşıb. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə qeyri-neft

sektoru üzrə əlavə daxilolmaların həcminin cari ildə təsdiq olunmuş həcmdən 800 milyon manat, Dövlət Gömrük Komitəsinin xətti ilə 500 milyon manat artması xüsusi ilə qeyd olunmalıdır. Bu faktın özü bir daha onu göstərir ki, həm vergi, həm də gömrük orqanlarında islahatların aparılması, bu sahədə şəffaflığın və hesabatlılığın artırılması öz bəhrəsini verməkdədir və əminəm, bu müsbət dinamika gələcəkdə də davam edəcək. Bütövlükdə, 2024-cü ilin dövlət büdcəsi haqqında qanunda dəyişiklik edilməsi haqqında təklifləri vacib hesab edir və bu layihənin səsə qoyularaq qəbul edilməsini təklif edirəm.

**Əliabbas Salahzadə.** Bu gün müzakirəmizə təqdim olunan "2024-cü il Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə layihə dövlətimizin iqtisadi qüdrətinin parlaq təzahürlərindən biridir. Ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlar möhtərəm cənab Prezidentimizin adı ilə bağlıdır, onun ardıcıl siyasətinin məntiqi nəticəsidir.

Vətən müharibəsində əldə etdiyimiz şanlı zəfərdən sonra üç ildir ki, dövlət büdcəsi dürüstləşdirilən zaman işğaldan azad olunmuş torpaqların bərpası və həmin ərazilərə sürətli qayıdışın təmin olunmasına vəsaitin ayrılmasını müzakirə edirik və hər növbəti ildə bu maddə üzrə ayrılan vəsaitin həcmi artır. Aparılmış düzgün büdcə siyasəti nəticəsində cari büdcə ilinin yanvar–aprel aylarının makrofiskal nəticələri yeni büdcə proqnozlarının üzərində işləməyimizə imkan vermişdir.

Bu dövrdə ötən ilin eyni dövrü ilə müqayisədə ümumi daxili məhsul real ifadədə 4,3 faiz, qeyri-neft sektoru isə 7,7 faiz artmışdır. İnflyasiya tempi da azalmış, orta inflyasiya göstəricisi 0,7 faiz təşkil etmişdir.

Təqdim olunan layihədən göründüyü kimi, dürüstləşmiş

büdcənin 2 milyard 944,3 milyon manat artırılması nəzərdə tutulur. Bu da ötən ilki göstərici ilə müqayisədə 8,9 faiz çoxdur. Göründüyü kimi, ölkəmizin dövr ərzində iqtisadi göstəriciləri, fiskal, maliyyə imkanları yaxşılaşıb, büdcədə profisit yaranıb, bu da bizə cari ilin büdcəsində dəyişikliklərin edilməsi imkanları yaradıb. Belə ki, 2024-cü ilin birinci rübündə istehsal olunmuş ümumi daxili məhsulun həcmi 29 milyard manat təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz, qeyri-neft-qaz sektorunda isə 6,7 faiz artıb. Göründüyü kimi, ölkəmizin gəlirlərində qeyri-neft sektorunun payı artmışdır və bu potensial və artım tempi güclənməkdədir. Dövr ərzində qeyri-neft yığımları artmışdır.

Dürüstləşmiş büdcə layihəsində əks etdirilmiş büdcə xərclərini analiz etsək, onda ən çox vəsaitin qayıdış prosesinə sərf olunmasının nəzərdə tutulduğunu görərik. Bu da bizə işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin keyfiyyət və kəmiyyətini artırmağa imkan verəcəkdir. Təqdim edilən layihədə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinə əlavə 1 milyard 160 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Ümumiyyətlə, 3 milyard 796 milyon manat məbləğində yeni xərclərin həyata keçirilməsi nəzərdə tutulub ki, bu da kifayət qədər böyük məbləğdir. Həmin vəsaitdən 807 milyon manatı müdafiə, infrastruktur və digər layihələrin maliyyə təminatı üçün isə 1 milyard 184 milyon manat əlavə vəsait ayrılacaqdır.

Bu gün azad edilmiş ərazilərin hər bir qarışında yeni şəhərlərin, yeni kəndlərin müasir infrastrukturu qurulur. Onu da xüsusi ilə qeyd etmək lazımdır ki, aparılan işlər yüksək keyfiyyətlə və fantastik sürətlə görülür.

Layihədə büdcə xərclərinin optimallaşması siyasətinə ciddi riayət edildiyi aydın görünür. Son illər büdcə xərclərinin optimallaşması və burada şəffaflığın təmini məsələlərinin siyasətdə ön plana çıxarılması gələcək iqtisadi inkişafda əsas təminedici amillərdən biri olacaqdır.

Qeyd edərdim ki, təqdim olunan layihə kifayət qədər peşəkarlıqla hazırlanmışdır və ona görə də lehinə səs verəcəyəm.

**Jalə Əhmədova.** Bu gün biz əminliklə deyə bilərik ki, 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ölkəmizi böyük bəlalardan xilas etdi. Həmin gün, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan həmin gündən başlayaraq Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu. Həmin gün ölkəmizin tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.

Ulu Öndər kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Bu isə dövlətimizin, azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, bir sözlə, qurtuluş demək idi. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Lider Heydər Əliyev məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla demişdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir.

Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu – biz onlarsız yaşaya bilmərik”.

Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü tam təmin olunmuş Azərbaycandır. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri sayəsində Qarabağ dünyanın ən dilbər və müasir məkanlarından birinə çevrilməkdədir.

Bu gün Ümummilli Liderin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz yeni nailiyyətlər qazanaraq güclü və nüfuzlu dövlətlər sırasında öz mövqeyini daha da möhkəmləndirib. Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və inkişaf etdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib.

Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz daha uca zirvələr fəth edəcək, gündən-günə inkişaf edəcək, çiçəklənəcəkdir.

**Sahib Alıyev.** Qurtuluş bayramını digərlərindən fərqləndirən cəhət ondan ibarətdir ki, zaman ötdükcə onun önəmi daha da artır. Sanki keçən hər il sözün hər anlamında zirvəyə doğru pillə olmaqla yanaşı, həm də əvvəllər görə bilmədiklərimizi də bir-bir üzə çıxarır. İndi gəlib çatdığımız 31-ci pillədən baxanda bəlli olur ki, biz təkcə vətəndaş savaşının qarşısının alınması, anarxiyanın, dərəbəyliyin aradan qaldırılması, ölkənin parçalanmaqdan qurtarılmasına deyil, həm də dövlət xalqına çevrilməmizə maneçilik törədən neçə əsrlik buxovu

tamamilə qırıb atdığımıza görə də o günə borcluyuq. Yəni 15 iyunun tariximizdəki geosiyasi çəkisi siyasi çəkisindən də böyükdür.

Geosiyasi çəkidən söz düşmüşkən, Qazaxıstan Prezidentinin mayın 28-də Avropada dərc edilən bir məqaləsində geosiyasi güc mərkəzlərinin təsirlərinin azalması fonunda orta çəkili dövlətlərin sabitliyin təmin olunmasında öz regionlarında və hətta qlobal müstəvidə mühüm rol oynamağa başladıqları vurğulanırdı. Dövlətimizin təcrübəsindən də biz bilirik ki, bu, doğrudan da, elədir.

Çoxumuza indi çatır ki, Ulu Öndər "Azərbaycan günəş kimi parlayacaq" deyəndə nəyi nəzərdə tuturmuş və belə bir reallığın yaranacağını hələ tək bir gücün hegemona çevrildiyi ilk günlərdən proqnozlaşdırır, ona da uyğun siyasət yeridirmiş.

Bəli, postsovet məkanındakıların bir hissəsi Fukuyama kimi mütəfəkkirlərin təsiri altında birqütblü dünyanın əbədiliyini düşünərək tam Qərbə sığındıqları, digərləri Rusiyanın diqtəsi ilə durub-oturduqları halda, Heydər Əliyev müstəqil dövlət qurmağa üstünlük verdi. Ulu Öndərin yeritdiyi balanslı siyasət elə məhz güç mərkəzlərinin hamısı ilə eyni məsafə saxlamaqla sırf milli maraqlarımıza cavab verən əməkdaşlıq demək idi ki, biz onun eyni qətiyyət, ləyaqət və sadaqətlə davam etdirildiyini bu gün də görürük.

Yeri gəlmişkən, Qərb siyasətşünasları hazırda dünyada 12 orta çəkili dövlətin olduğunu bildirirlər və onlardan ikisi cənab Prezidentin təbirincə desək, bizim ailənin, yəni türk dünyasının təmsilçiləridir. Əslində isə TDT üzvlərindən üçü de-fakto "middle power", yəni orta çəkili güc, Türkiyə isə təsiri yerləşdiyi regionu çoxdan aşan böyük dövlət kimi çıxış edir. Ona görə də cənab

İlham Əliyev TDT-nin geosiyasi güc mərkəzinə çevriləcəyini gəlişigözəl söz olaraq işlətmir və bu, qaçılmaz reallıqdır.

Mən bu yöndə atılan ən mühüm addımlardan birinin, yəni Şuşa Bəyannaməsinin məhz 15 iyunda imzalanmasını da, dövlət başçımızın ötən həftə türk dövlətləri parlamentlərinin sədrləri ilə görüşdə qardaş ölkələr arasında hərbi, hərbi-texniki, texniki əməkdaşlığı genişləndirmək haqda dediklərini də təsadüf saymıram.

Qurtuluş bayramımız qutlu olsun!

# MÜNDƏRİCAT

14 iyun 2024-cü il................................................................ 3
Edilməmiş çıxışların mətnləri............................................ 113

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Növbədənkənar
on altıncı sessiya

74-cü cild

14 iyun 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  7,5. Sifariş 73. Tiraj 150.